

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Müstəqil və qüdrətli Azərbaycanın memarı HEYDƏR ƏLİYEV



3

SƏS
№ 226 (6909)
9 dekabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Qalib xalq Qalib Prezidentlə Zəfər seçkilərinə doğru!



4

PREZİDENT İLHAM ƏLİYEVİN son 20 ildəki parlaq qələbəsi xalqın bu siyasətə tam dəstəyinin reallığıdır

# Azərbaycandan dünyaya sülh mesajları



12

MSK növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini təyin edib



2

"Yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətləri daha da inkişaf edəcək"



9

Əzizim, qurud aşı, bu iş sevməz heç naşı...



14

Binalarda reklam qadağası müsbət, yoxsa mənfi haldır?




16

Mələk donunda şeytan



6

# ”Avropa Şurası iki ölkə arasında etimad quruculuğu proseslərinə töhfə vermək üçün çox yaxşı platformadır”

*Prezident İlham Əliyev Avropa Şurasının Baş katibini qəbul edib*



Prezident İlham Əliyev dekabrın 8-də Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçi qəbul edib. Mariya Peyçinoviç Buriç Azərbaycanın 2001-ci ildən Avropa Şurasının dəyərli üzvü olduğunu vurğuladı. O, ölkəmiz tərəfindən Avropa Şurasının bir çox konvensiyasının imzalandığını və ratifikasiya edildiyini, bir müddət əvvəl Azərbaycan tərəfinin Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyasını imzaladığını xatırladı və bütün bunları müsbət addım kimi dəyərləndirdi. Avropa Şurasının Baş katibi qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən islahatları yüksək qiymətləndirir.



Azərbaycanın regionda davamlı sülhün təmin edilməsi istiqamətində atdığı addımları təqdir etdiklərini deyən Mariya Peyçinoviç Buriç bu xüsusda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanatı və bundan irəli gələn məsələləri, xüsusilə iki ölkə arasında etimad quruculuğu tədbirləri istiqamətində atılan addımları yüksək qiymətləndirdiklərini bildirdi, Azərbaycan ilə Ermənistan arasında etimad quruculuğu proseslərinə Avropa Şurasının töhfə verməyə hazır olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Şurası arasında bu illər ərzində çox sıx əməkdaşlığın formalaşdığını qeyd etdi. Prezident İlham Əliyev özünün Avropa Şurası ilə əlaqələrini və Azərbaycan nümayəndə heyətinin AŞPA-dakı fəaliyyətini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında qəbul olunmuş birgə bəyanat qarşılıqlı sülh gündəliyinin irəli aparılması və ölkələrimiz arasında münasibətlərin normallaşdırılması üçün qarşılıqlı siyasi iradənin bir daha nümayişidir. Dövlətimizin başçısı vurğuladı ki, Avropa Şurası da iki ölkə arasında etimad quruculuğu proseslərinə töhfə vermək üçün çox yaxşı platformadır.

Söhbət zamanı AŞPA-da Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında da əlaqələrin və konstruktiv dialoqun vacibliyi bildirildi. Praktiki sahələrdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf etdiyi qeyd olundu.

Görüşdə mədəniyyətlərarası dialoq prosesində Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığa toxunuldu, bu əməkdaşlığın davam etdirilməsinin önəmi vurğulandı. Ölkəmizdə ənənəvi keçirilən mədəniyyətlərarası dialoq forumunda Avropa Şurasının tərəfdaş qismində çıxış etməsinin, həmçinin Avropa Şurasında islamofobiya meyillərinə qarşı xüsusi nümayəndənin təyin olunmasının təqdir edildiyi bildirildi.

# ABŞ Dövlət Departamenti Azərbaycanla Ermənistan arasında razılığı alqışlayıb

**Amerika Birləşmiş Ştatları (ABŞ) Azərbaycan və Ermənistan arasında saxlanılanların dəyişdirilməsi ilə bağlı razılığı alqışlayır. AZƏRTAC xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin mövzulu ilə bağlı bəyanatında bildirilib.**




”Birləşmiş Ştatlar Ermənistan və Azərbaycanın iki azərbaycanlı və otuz iki erməni məhbusunun azad edilməsi barədə açıqlamasını alqışlayır. Bu öhdəlik tərəflərin sülh müqaviləsi prosesini yekunlaşdırmaq və münasibətləri normallaşdırmaq üzərində işlədiyi bir vaxtda mühüm etimadın möhkəmləndirilməsi tədbiridir. Biz Azərbaycan Prezidenti Əliyevi və Ermənistanın baş naziri Paşinyanı Cənubi Qafqaz xalqlarına daha dinc və firavan gələcək naminə zəmin yaratmaq üçün birgə səylərinə görə alqışlayırıq. ABŞ davamlı və ləyaqətli sülhə nail olmaq üçün səyləri güclü şəkildə dəstəkləməyə davam edəcək”, - deyə bəyanatda qeyd olunub.

## Ərdoğan: ”Azərbaycanla sülhə əsaslanan münasibətlər Ermənistan üçün ən yaxşı variantdır”



“Hazırda Fransanın etdiyi, sadəcə, təxribatdır. Fransa bilməlidir ki, Ermənistana yaxşılıq etmir, tam əksinə, pislik edir. Daha əvvəl də Fransa Ermənistana çox dəstək verib. Nəticədə nə əldə etdilər? Heç nə. Fransa Minsk üçlüyünə daxil idi. İş bitib, heç bir nəticə əldə edilməyib. Vəziyyət belə olduğu halda, o, Ermənistanı yenidən təxribata çəkir. Zirehli daşıyıcılar göndərsəniz nə olacaq ki? Buradan nəticə əldə edə bilməzsiniz. Çünki artıq öz torpaqlarını işğaldan azad edən Azərbaycan var.”

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Afina səfərindən qayıdarkən mediaya açıqlamasında bildirib. Qarabağda əldə edilən nəticənin ortada, aşkar olduğunu xatırladan Türkiyə Prezidenti deyib: ”İndi bu hərbi texnikanı göndərməklə nə əldə edəcəksən? Əvvəllər Ermənistana göndərilən tanklar, toplar və tüfənglər Azərbaycanın əlinə keçdi. Bunlar nəticə almaq üçün deyil, sadəcə, Ermənistanı aldadırlar. Ermənistan hökuməti son təcrübələrindən dərs götürməli və bu təxribatlara aldanmamalıdır. Hazırkı sülh fürsətini dəyərləndirib onu çaşdıran ölkələrin toruna düşməmək Ermənistanın xeyrinə olar. Azərbaycanla sülhə əsaslanan münasibətlər Ermənistan üçün ən yaxşı variantdır. Onun əlinə silah verənlər qısa zamanda Ermənistanı tək qoyacaq”.

## MSK növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini təyin edib



Dekabrın 8-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib. Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə MSK sədri Komissiya üzvlərini növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə tanış edib. Sonra növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin təyin olunması məsələsinə baxılıb və Sərəncamın müvafiq hissəsini təmin etmək məqsədilə seçkilərin 2024-cü il fevralın 7-nə təyin edilməsinə qərar verilib.

Komissiya seçkilərin keçirilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin müəyyən edilmiş qaydada və müddətdə seçki subyektləri tərəfindən ardıcıl və keyfiyyətlə gerçəkləşdirilməsi, onlara metodiki yardım göstərilməsi və seçki prosesindəki fəaliyyətlərinin səmərəliliyinin artırılması üçün zəruri məqamların əks olunduğu Təqvim planını təsdiq edib.

Sözügedən seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması, habelə vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə MSK nəzdində ekspert qrupunun yaradılmasına dair məsələyə də iclasda baxılıb və Komissiyanın qərarı ilə 9 nəfərdən ibarət tərkibdə ekspert qrupu yaradılıb. Qanunvericilikdə nəzərdən tutulmuş müddətdən gec olmayaraq dairə seçki komissiyaları nəzdində 3 nəfərdən ibarət ekspert qruplarının yaradılması isə dairə seçki komissiyalarına həvalə olunub.

MSK-nın qərarı ilə, həmçinin növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədin qeydə alınması üçün təqdim edilmiş imza vərəqələrində olan imzaların və digər seçki sənədlərindəki məlumatların düzgünlüyünü yoxlamaq üçün müvafiq dövlət qurumlarının mütəxəssislərindən ibarət işçi qrupu yaradılıb və Komissiyanın üzvü işçi qrupunun rəhbəri təyin edilib. Beynəlxalq təşkilat və xarici ölkələrin diplomatik nümayəndəliklərinin, eləcə də media qurumlarının təmsilçilərinin iştirak etdiyi iclasda cari məsələlərə də baxılıb.

# Müstəqil və qüdrətli Azərbaycanın memarı

# HEYDƏR ƏLİYEV

***Müstəqil Azərbaycan dövlətinin qurucusu, azərbaycançılıq ideologiyasının banisi Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində əbədiyaşarlıq qazanmışdır. Azərbaycanda dövlət quruculuğu, iqtisadi dirçəliş, sosial-siyasi həyatda tərəqqi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqın məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi yaşayır və yaşayacaqdır. Azərbaycan xalqının tarixində taleyüklü məsələlərin həllində əvəzsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyev xilaskarlıq missiyası ilə tarix yazdı.***



## "AZƏRBAYCAN MƏNİM NƏFƏSİM, HƏYATIMDIR"

Ulu Öndər Heydər Əliyev Azərbaycanı bir dövlət, xalqımızı isə bir millət kimi tarixin ağır və sərt sınaqlarından uğurla çıxardı. Ölkəmizi parçalanmaq təhlükəsindən xilas edən, respublikamızın inkişafına möhkəm zəmin yaradan Ulu Öndər Heydər Əliyevin siyasi kursu nəticəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Bütün ömrünü Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradaraq, onu böyük bəladan, dəhşətli fəlakətdən qurtardı. Ulu Öndər Heydər Əliyev hər zaman deyirdi ki, Azərbaycan mənim nəfəsim, həyatımdır. Doğma vətənim Azərbaycana bağlıyam. Heydər Əliyevin böyüklüyü Onun sözü ilə əməlinin birliyində idi. Ulu Öndər hər zaman çalışırdı ki, insanların istəklərini, arzularını reallaşdırsın.



Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Heydər Əliyev böyük azərbaycanlıdır, böyük tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur. O öz ömrünü Azərbaycan xalqına həsr etmişdir və bütün dövrlərdə Azərbaycana sədaqətlə xidmət edirdi".

Düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirən, bugünki uğurlarımız üçün möhkəm baza yaradan Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının tarxində böyük rolu vardır. Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb. Onun ideyaları hər bir azərbaycanlı üçün dəyərlidir. Böyük Şəxsiyyət bütün varlığı ilə sevdiyi Azərbaycanı, xalqını, onun dövlətçilik tarixini çox çətin sınaq və imtahanlardan çıxarıb. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etdiyi dövrdən etibarən, Azərbaycanın iqtisadi inkişafının əsaslarının yaradılması, zəngin iqtisadi potensialının ölkənin gələcək inkişafına və xalqın rifahının yüksəlməsinə yönəldilməsi prosesinə başlanılıb. Ulu Öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olub. Kənd təsərrüfatının və sənayenin, iqtisadiyyatın digər sahələrinin inkişafında, sosial məsələlərin həllində və əhalinin rifah halının yaxşılaşdırılmasında böyük irəliləyiş əldə edilib. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək, ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlandı və dərhal onların icrasına başlanıldı. Böyük Siyasətçi iqtisadiyyat, o cümlədən, kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist Partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə çevirmək yolunda qətiyyətli yorulmadan çalışırdı. Qısa bir zaman məsafəsində bütövlükdə, respublika ərazisində yüzlərlə zavod, fabrik və istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. "1969-cu ilə qədər Azərbaycan Sovet İttifaqında ən geridə qalmış respublika kimi tanınırdı. Respublikada sənaye potensialı çox aşağı səviyyədə idi. Digər göstəricilər də ən aşağı səviyyədə idi", - deyə Prezident İlham Əliyev bildirib.

## "NƏ QƏDƏR AZƏRBAYCAN VAR, MƏN YAŞAYACAĞAM. MƏN AZƏRBAYCANDA ƏBƏDİ OLACAĞAM"

Zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi ilə Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Azərbaycan xalqının Xilaskar Oğlu Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edirdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Əlbəttə ki, Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünki əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin müstəqilliyini əbədi etmiş oldu. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Bu parlaq dühanın xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən, Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən qurtuldu. Ulu Öndərin müdrikliyi, uzaqgörənliyi, qətiyyəti və dövlətçilik istedadı sayəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi. Böyük zəka və iradə sahibi olan Ümummilli Lider Heydər Əliyev, qısa zaman kəsiyində, müharibə bölgəsində atəşkəsə, ölkədə möhkəm və dönməz sabitlik yaradılmasına, qeyri-qanuni silahlı dəstələrin ləğvinə, ümummilli böhrana son qoyaraq, demokratik islahatların həyata keçirilməsinə nail oldu. Azərbaycanın elə bir sahəsi yoxdur ki, Heydər Əliyev orada izi olmasın, möhrünü vurmasın. Özünün dediyi kimi, "Nə qədər Azərbaycan var, mən yaşayacağam. Mən Azərbaycanda əbədi olacağam. Ona görə ki, müstəqil Azərbaycan dövləti əbədi olacaq".

## "ON İL ƏRZİNDƏ - 1993-2003-CÜ İLLƏR ƏRZİNDƏ AZƏRBAYCAN BÖYÜK VƏ UĞURLU YOL KEÇMİŞDİR"

İctimai-siyasi həyatın bütün sahələrində qazanılan uğurlar milli tərəqqimizi təmin etməklə yanaşı, dövlətimizin beynəlxalq aləmdə nüfuzunu da artırır, onu dünya birliyinin etibarlı tərəfdaşına çevirir. Bütün bu uğuların mənbəyində Heydər Əliyevin müdrik siyasəti dayanır. Dövlət başçımız bildirib ki, bizim xoşbəxtliyimiz, Azərbaycan xalqının xoşbəxtliyi ondan ibarətdir ki, Heydər Əliyev kimi liderimiz olubdur: "On il ərzində - 1993-2003-cü illər ərzində Azərbaycan böyük və uğurlu yol keçmişdir. Azərbaycanda dövlət quruculuğu prosesi uğurla aparılmış və gözəl nəticələrə gətirib çıxarmışdır. Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. Qanlı Yanvar faciəsinə hüquqi və siyasi qiymət verilmişdir. Dövlətimizin ideoloji əsasları qoyulmuşdur. Köklü siyasi islahatlar aparılmışdır. İqtisadi sahədə böyük islahatlar aparılmağa başlamışdır".

Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilir. Ulu Öndərin quruculuq və inkişaf xəttinin davamçısı olan Cənab İlham Əliyev Onun siyasi kursunu uğurla davam etdirməklə, ölkəmiz sabitliyin və inkişafın, vətəndaş həmrəyliyinin təmin olunduğu güclü dövlətə çevrilib. 2003-cü ildən etibarən, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub.

## "XOŞBƏXT ADAMAM Kİ, ATA VƏSİYYƏTİNİ YERİNƏ YETİRDİM"



Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında erməniyə "dəmir yumruğ"un gücünü göstərdi.44 günlük müharibədən sonra regionda yaranmış yeni vəziyyət və qalib dövlətimizin sülhsevər siyasəti dünyaya bir mesaj oldu. Azərbaycan XXI əsrin müharibəsini apardı və hərb tariximizə möhrünü vurdu. Azərbaycan hərbi, iqtisadi gücü ilə dünyanın diqqətini özünə cəlb etdiyi kimi, bu gün işğaldan azad olunan ərazilərimizdə həyata keçirilən abadlıq-quruculuq işləri ilə də dünya dövlətlərinin diqqətindədir. 2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Şuşa şəhəri işğaldan azad edildi. "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən demişdir.

Cənab İlham Əliyev bütün dünyaya Azərbaycanın gücünü, tarixi ədaləti diplomatik yol ilə bərpa etdiyini göstərdi. Vurğulamaq yerinə düşər ki, Ulu Öndər dəfələrlə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktını beynəlxalq təşkilatların siyasi gündəliyinə gətirmişdir və bu səbəbdən, Heydər Əliyev hər zaman dünya ermənilərinin hədəfində olub. Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında Ulu Öndər misilsiz səylər göstərmişdir. Bu gün Onun arzuları reallaşmışdır. Ümummilli Liderin siyasi zəkasının məhsulu olan qüdrətli Azərbaycan bu gün öz inkişaf tempinə görə, dünyanın lider dövlətləri sırasındadır.

Millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır.

***Zümrüd BAYRAMOVA***

# Qalib xalq Qalib Prezidentlə Zəfər seçkilərinə doğru!

## PREZİDENT İLHAM ƏLİYEVİN son 20 ildəki parlaq qələbəsi xalqın bu siyasətə tam dəstəyinin reallığıdır



Prezident İlham Əliyevin dekabrın 7-də tarixi Sərəncamı ilə 2024-cü il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri elan edildi. Qərara görə, Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və ölkənin Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etməlidir. Qeyd edək ki, ölkəmizin tarixində ilk dəfə olaraq 2018-ci ildə iqtidar Yeni Azərbaycan Partiyası növbədənkənar prezident seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış etdi. Həmin təşəbbüsə uyğun olaraq fevralın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncam imzaladı. Sərəncama əsasən seçkilər 2018-ci il aprelin 11-nə təyin edildi. Və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2018-ci il aprelin 18-də Milli Məclisdə andiçmə mərasimində çıxışı zamanı bildirdi ki, təməlini Heydər Əliyevin qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur: "Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var. Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Xalq-iqtidar birliyi var... Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".

Bəli, artıq 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərindən ötən 5 il ərzində qalib Liderimizin verdiyi sözlər əməlləri ilə həyata keçirilməkdədir. Və son illərin uğurlu nəticələrinə əsaslanaraq birmənalı şəkildə deyə bilərik ki, 2024-cü il fevralın 7-də baş tutacaq Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq növbəti 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri artıq ölkəmizin istisnasız bütün ərazilərində, o cümlədən, işğaldan azad edilmiş Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda keçiriləcək. Bu, Azərbaycan xalqının öz Prezidentinin rəhbərliyi ilə əldə etdiyi ən böyük tarixi nailiyyətidir. Bütün bu ərazilərdə müqəddəs bayrağımızı, öz xalqına söz verdiyi kimi, şərəflə ucaldan Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev atdığı müdrik addımları, verdiyi düşünülmüş qərarları ilə nəyi nə zaman və necə etməyin lazım olduğunu hər kəsdən daha yaxşı bildiyini dəfələrlə nümayiş etdirib. Və üç il bundan öncə Azərbaycanın parlaq Zəfərlə başa vurduğu 44 günlük Vətən Müharibəsi, eləcə də 2023-cü ilin sentyabrın 19-20-də isə uğurlu antiterror əməliyyatları ilə Azərbaycan beynəlxalq qanunlarla təsbit olunmuş ərazilərində suverenliyini, ərazi bütövlüyünü tam bərpa etdi. Və beynəlxalq vasitəçilərin uzun illər edə bilmədiklərini və yaxud etmək istəmədiklərini Azərbaycan özü reallığa çevirdi. Bütün bunları nəzərə alaraq tam əminliklə bir daha deyə bilərik ki, 2024-cü il 7 fevral seçkilərini n ən şərəfli və qürurlu anı ondan ibarətdir ki, 30 il əvvəl evlərindən didərgin salınan azərbaycanlıların bir hissəsi daha müvəqqəti məskunlaşdıqları bölgələrdə deyil, böyük quruculuq və abadlıqla bərpa olunan, cənnət məkana çevrilən öz doğma torpaqlarında - Zəngilanda, Laçında, Şuşada, Füzulidə, Cəbrayılda və azad olunmuş digər yerlərdə səs verəcəklər. Çünki dövlət başçımızın xalqa müraciətində söylədiyi kimi....

### AZƏRBAYCAN ÖZ SUVERENLİYİNİ BƏRPA ETDİ

"Dünən təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir".Prezident İlham Əliyev xalqa müraciətində antiterror tədbirləri nəticəsində hərbçilərimizin böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərdiklərini qeyd edərək deyib: "Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır". Bəli, haqq savaşımız Zəfər Qələbəsi ilə başa çatdı. Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğuları, hədsiz fərəh, qürur hissləri yaşayır. Bu zəfərlə biz Ermənistanın 20 faiz ərazilərimizin 30 illik işğalına son qoyduq. Torpaqlarımızı azad etməklə həm də bütün dünyada yenidən tanındıq, özü də bu dəfə qalib dövlətin Qalib Sərkərdəsinin qalib xalq birliyi ilə...

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 10 milyonluq Azərbaycan xalqı 44 gün ərzində ərazi bütövlüyümüzü bərpa etdi. 44 günlük Vətən müharibəsində Azərbaycan dövləti qətiyyətli qələbə qazandı, işğalçını əzəli torpaqlarımızdan "iti qovan kimi qovdu". Eyni zamanda, bütün Azərbaycan xalqı Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşərək, sözün əsl mənasında, böyük və qəhrəman xalq olduğunu bir daha sübut etdi, misilsiz birlik, həmrəylik nümayiş etdirdi və cəmiyyətimizdə mövcud olan Xalq-Lider-Ordu birliyini daha yüksək səviyyəyə qaldırdı. Xalq öz Liderinə ürəkdən inandı və Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının etimadını əməli fəaliyyəti və şanlı zəfəri ilə doğrultdu. Möhtərəm Prezidentimiz öz qətiyyəti, sarsılmaz iradəsi, cəsarəti, Azərbaycana edilən bütün təzyiqlərə məharətlə sinə gərməsi və son dərəcə mürəkkəb, çətin müharibə şəraitində hərbi meydanda, siyasi arenada, informasiya müharibəsində parlaq qələbələr qazanaraq xalqına söz verdiyi kimi sona qədər getdi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi və Vətən torpağı uğrunda şəhid olan bütün oğul-qızlarımızın qisasını aldı. Əminliklə deyə bilərik ki, İlham Əliyev öz adını milli tariximizin son 200 ildə ən şanlı və müzəffər sərkərdəsi kimi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə əbədi həkk etdi. Və...

### "DƏMİR YUMRUĞ"UN GÜCÜ İLƏ DÜNYAYA QƏLƏBƏ MESAJI - "QARABAĞ AZƏRBAYCANDIR! VƏ NİDA!"

Cəmi 44 gün bəs etdi ki, Azərbaycan tarixinin son yüzilliklərdəki axını tərsinə çevrilsin və Güney Qafqaz regionunda yeni reallıq bərqərar olsun və bu 44 gün müddətində terrorçu Ermənistanın "status-kvo"nu ürəyində qalsın. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində də dəfələrəl bildirirdi ki, "status-kvo" artıq yoxdur: "Status-kvo" deyilən məsələ yoxdur. Qurtardı getdi. "Status-kvo" belə olmalıdı, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu. Bax, orada, döyüş meydanında. "Status-kvo" yoxdur. Təmas xətti - yoxdur təmas xətti, yarmışıq onu. 30 ildir qururdular bu təmas xəttini. Özü də bu bölgənin relyefi belədir ki, o, təbii istehkamdır. Biz aşağıdan yuxarı gedirik. Özü də orada beton istehkamlar qurulub - 30 il ərzində! Yarıb keçmişik! Azərbaycan əsgərinin qabağında heç kim heç nə deyə bilməz. Biz bu gün o təmas xəttini darmadağın etdik. Deyirlər, yeni təmas xətti olacaq. Olmayacaq".

Bəli, "Dəmir yumruq" birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqının birlik, güc rəmzi ilə böyük qələbə, zəfər tarixini yazdı. Azərbaycan dövlətinin qüdrəti, Müzəffər Ali Baş Komandanın "Dəmir yumruğ"unun ətrafında birləşməsi ilə bütün dünyaya gücünü göstərdi və sübut etdi ki, o özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi! Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin videokonfrans formatında keçirilən görüşdə birgə Bəyanat imzalandı. Bu bəyanatla işğal altında olan torpaqlarımız, o cümlədən Kəlbəcər, Ağdam və Laçının bir güllə belə atmadan qaytarılması, erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması, bütün daxili məcburi köçkün və qaçqınlarımızın öz ata-baba yurdlarına, Dağlıq Qarabağa və onun ətraf ərazilərinə qayıtması və Naxçıvan Muxtar Respublikasına quru sahəsi ilə birbaşa yolun açılması böyük tarixi hadisədir. Bu "Dəmir yumruğ"un və Azərbaycan Ordusunun gücü sayəsində baş verdi. 1 milyondan çox soydaşlarımızın torpaq, yurd həsrətinə son qoyuldu. Dövlət başçımızın söylədiyi kimi: "Bizim qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir". Və artıq bu gün - 33 ildən sonra dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub.

### ƏVVƏLKİ SEÇKİLƏRDƏ OLDUĞU KİMİ, AZƏRBAYCAN XALQI YENƏ TARİXİ SEÇİMİNİ EDƏCƏK - SABİTLİYƏ, ƏMİN-AMANLIĞA, BÜTÖVLÜYƏ SƏS VERƏCƏK

Xalqımız bundan əvvəl Prezident seçkilərinin növbədənkənar keçirilməsinin şahidi olmuşdu. 2018-ci ildə Prezident seçkiləri uğurla başa çatdı. Eyni zamanda, 2020-ci ildə parlament seçkiləri növbədənkənar keçirildi. 2018-ci il aprel ayının 11-də ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərdə Cənab İlham Əliyevin ümumxalq sesvermesində 86,03 faiz səs qazanaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalqımız bu düzgün seçimi bugünkü qələbə tarixinin yazılmasında vacib rol oynadı. Prezident İlham Əliyev ötən 20 il ərzində millətimiz üçün ən ağrılı belə olan, dövlətimiz üçün kifayət qədər ciddi çağırış hesab edilən erməni işğalına son qoydu.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Ona göstərilən bu etimada görə xalqa ünvanladığı müraciətində demişdir: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımızın əsas şərtidir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Xalq-iqtidar birliyi bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik".

Azərbaycanın çağdaş tarixində yeni intibah mərhələsinin əsasını qoyan, milli mənafelərə söykənən strateji siyasi kursun ardıcıllığını təmin edən, təvazökarlığı həyat tərzinə çevirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 20 il ərzində sözü ilə əməli bir olan, hər bir vətəndaşının problemini öz problemi, qayğısını öz qayğısı kimi qəbul edən, iştirak etdiyi bütün seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini, etimadını qazanan, parlaq zəkası, peşəkar idarəçilik qabiliyyəti və praqmatik yanaşması ilə xalqının Prezidenti olduğunu əməli və yorulmaz fəaliyyəti ilə sübuta yetirmişdir.

Bir sözlə, sözü ilə əməli hər zaman üst-üstə düşən Prezident İlham Əliyev son 20 ildəki uğurları bir daha dəsdiqləyir ki, hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqla bundan sonra da zamanın axarında öz layiqli yerini tutan Azərbaycan bundan sonra da Prezidentimiz İlham Əliyevin uzaqgörən siyasəti və müdrik rəhbərliyi sayəsində inkişaf edəcək və çiçəklənəcək.

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycanda gender siyasəti uğurla davam etdirilir

***Gender siyasətinin əsasını ilk növbədə, kişilərin və qadınların ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində bərabərliyi təşkil edir. İstər dini, istərsə də ümumbəşəri insan haqları baxımından hər iki cinsdən olanların haqlarının qorunması və möhkəmləndirilməsi, qadın və kişilərin bu hüquqlardan istifadə etməsi isə dövlətin məqsədyönlü gender siyasətinin tərkib hissəsi hesab olunur. Xüsusilə qeyd edək ki, ölkəmizdə hər iki cinsdən olanların haqlarının qorunması təmin olunur, hüquqlarından istifadə etmələrinə geniş imkanlar yaradılıb və bu isə o deməkdir ki, gender siyasəti uğurla həyata keçirilməkdədir.***




Dünada ən aktual məsələlərdən biri də məhz gender bərabərliyi, qadın və kişilər arasında bərabərlik hesab olunur. Təsadüfi deyil ki, gender məsələlərinə hər zaman qlobal səviyyədə nəzarət var və bu məsələ hər zaman diqqətdə saxlanılır. Dünyanın istənilən ölkəsi gender məsələlərinə həssaslıqla yanaşır. Ən inkişaf etmiş ölkələr belə gender siyasətini ən aktual məsələ olaraq gündəmdə saxlayır. Ölkə başçısının, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda da gender siyasəti uğurla həyata keçirilir. Ölkəmizdə bunun üçün hüquqi baza da mövcuddur. Cəmiyyətin bütün sahələrində kişilər və qadınlar arasında bərabərlik təmin olunub və ölkəmiz bu istiqamətdə də nümunə hesab olunur.

Hüquqi bazanın olması sözsüz ki, olduqca vacibdir, lakin heç də hər şey demək deyil. Heç şübhəsiz ki, kişilər və qadınlar arasında bərabərliyin təmin olunması təkcə huquqi baza, qanunvericiliklə reallaşdırıla bilməz və reallaşdırılmamalıdır da. Əvvəla ona görə ki, heç də bütün hallarda bu məsələ qanun müstəvisinə daşına bilməz. Digər tərəfdən də axı, bərabərliyin qorunması üçün inzibati tədbirlər kifaət etmir və insanlar özləri buna çalışmalıdırlar. Yəni, bütövlükdə cəmiyyətin özü belə bir bərabərliyin təminatçısı olmaqda maraqlı olmalıdır. Maraqlı olmalıdırlar ki, ya kişinin, ya da qadının hüquqları pozulmasın və cəmiyyətdə bərbərlik olsun. Ələlxüsus da, insanlar bərabərlik anlayışından qətiyyət çəkinməməli, ehtiyatlanmamalıdırlar, çünki gender bərabərliyi nə kişinin qadının yerini tutması, nə də qadının kişinin yerinə keçməsi demək deyil.

Əlbəttə, etiraf etmək lazımdır ki, bəzən kişi və qadın arasında bərabərliyin pozulması hallarına da rast gəlinir və bu zaman səbəb olaraq, mental düşüncənin müəyyən çərçivələr yaratdığı da diqqətdən yayınmır. Məsələ burasındadır ki, nə mental dəyərlər, nə də dinimiz bərabərsizliyə rəvac vermir. Ələlxüsus da İslam dini ayrıseçkiliyi ümumiyyətlə qəbul etmir və insanlar arasında bərabərliyi tərənnüm edir. İslam əxlaqının insanlar arasında fərq qoyulmasına qarşı olsuğu barədə kifayət qədər tarixi faktlar var. Dinimiz həyatın bütün sahələrində bərabər olmağı insanlara əsrlə boyu tövsiyyə edib, lakin bundan doğru və düzgün nəticə çıxarmağı bacarmayanlar, yaxud da başqa məqsəd güdənlər öz niyyətlərinə uyğun şəkildə istifadə etməyə çalışıblar. Hətta belələrinin təsiri əfsus ki, hələ də qalmaqdadır. Lakin cəmiyyətimiz bu kimi hallarla qətiyyən barışmaq niyyətində deyil və qanunlarla yanaşı, ictimai qınaq da öz müsbət təsirini göstərməkdədir.

Xatırlatmaq yerinə düşərdi ki, Şərqdə ilk dəfə seçmək, seçilmək hüququ Azərbaycan qadınına məxsus olub və bizim qadınlarımızın cəmiyyətdə rolunun artması hələ ötən əsrin əvvəllərindən müşahidə edilib. Unutmaq lazım deyil ki, 1908-ci ildə Azərbaycanda ilk qadın xeyriyyə cəmiyyətinin yaradıcısı Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə Məlikova olub. Oğlanların və qızların birlikdə təhsil aldığı ilk məktəbin əsasını da məhz Azərbaycan qadını, beynəlxalq konfransda çıxış edən azərbaycanlı qadın Həmidə Məmmədquluzadə qoyub. Qadınlara seçmək və seçilmək hüququnu Şərqdə ilk ölkə olaraq verən, bununla da tarixə düşən Azərbaycan bu məsələdə Amerikanı da, Fransanı da qabaqlayıb. Çünki qadınlara səsvermə hüququ məhz Azərbaycandan illər sonra Amerikada hələ 1920-ci ildə, Fransada isə 1944-cü ildə verilib. Deməli, ölkəmiz gender bərabərliyi ilə əlaqədar dünyanın ən qabaqcıl ölkələrindən də öndədir və tarixi faktlar da bunu təsdiq edir ki, bizdə bu bərabərlik öncədən də mövcud olub.

Heç şübhəsiz ki, sağlam ailə institutunun inkişafı belə birinci növbədə, cəmiyyətdə qadın və kişilərin hüquqi, sosial, mənəvi baxımdan bərabərliyindən bilavasitə asılıdır. Gender bərabərliyinə nail olmaq üçün dünyada çoxlu sayda qanunlar qəbul olunub. Hətta beynəlxalq norma və prinsplər də mövcuddur və bütün dünyada bu istiqamətdə hələ də müvafiq addımlar atılmaqdadır. Çünki gender bərabərliyinin təminatı öz aktuallığını qoruyur və bu istiqamətdə qanunların olması vacib məsələ olaraq qəbul edilir.

"Qadınlara Qarşı Ayrı-Seçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında" BMT-nin Konvensiyanı Azərbaycan hələ 1995-ci ildə ratifikasiya edib. Daha sonra, yəni, 1998-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin, hal-hazırki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncamların imzalanması da gender bərabərliyinə öz töhfəsini verib. Ulu Öndərin "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" 2000-ci ildə imzaladığı fərman bütün dövlət strukturlarında qadınların təmsil olunma faizinin yüksəldilməsini nəzərdə tuturdu. Qeyd edək ki, nazirlik və idarələrdə gender siyasətinə məsul koordinatorların-lokal mərkəzlərin fəaliyyət göstərməsi ölkəmizdə gender siyasətinin uğurla aparılması və bu istiqamətdə əldə edilən nəticələtin qənaətbəxş olması deməkdir.

Azərbaycan qadını bu gün ölkəmizdə istər idarəçilik, istər qanunvericilik, istər hüquq-mühafizə, istər ədliyyə orqanları, istərsə də ən məsul vəzifələri daşıyır və hazırda bizim qadınlarımızın təmsil olunmadığı heç bir fəaliyyət sahəsi yoxdur. Həyatın bütün sahələrində etdiyimiz müşahidələr onu deməyə əsas verir ki, bütün ictimai proseslərdə qadınların kişilərlə bərabər çalışmaq ənənəsi ötən əsrin əvvəllərindən bu günümüzə qədər qorunmaqdadır. İstənilən vəzifədə, dövlət qulluğunda və istənilən sahədə kişilərlə bərabər çalışan qadınlar bu vəzifələrin, tapşırıqların, üzərlərinə düşən işin öhdəsindən layiqincə gəlməkdədirlər. Bu gün Milli Məclisdə belə çoxlu sayda qadın millət vəkillərimiz, deputatlarmız var və onlar heç də öz fəaliyyətlərində geri qalmırlar.

Etiraf etmək lazımdır ki, qadınların cəmiyyətdə rolunun artmasında, onların kişilərlə bərabər ictimai həyatın bütün sahələrində çalşmasında, bir sözlə, gender bərabərliyinin təmin olunmasında dövlətimizin rolu danılmazdır. Dövlətimiz qadınların bütün sahələrdə çalışması üçün şərait yaratmaqdadır. Hansısa bir sahədə qadınların çalışması üçün qadağa, məhdudiyyət yoxdur. Azərbaycan qadınının təhsil ocaqlarında çalışması, elmi kəşflərə imza atması, elmin, mədəniyyətin inkişafına töhfələr verməsi, ölkəmizin milli maraqlarının müdafiəsində, idman yarışlarında ölkəmizi təmsil etməsi, yetərincə diplomat qadınlarımızın olması və idmançı qadınlarımızın bayrağımızı ölkə hüdudlarından kənarda da yüksəklərə qaldırması danılmaz faktlardır. Bu faktlar isə öz növbəsində onu deməyə əsas verir ki, gender bərabərliyinin qorunması istiqamətində uğurlu nəticələrimiz var və deməli, Azərbaycanda gender siyasəti uğurla davam etdirilir.

***İnam Hacıyev***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.**






2023-cü il dekabrın 8-də YAP Xətai rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Suraxanı rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Sonda xatirə fotosu çəkdirilib.

# "Növbədənkənar seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir"



"Müstəqil Azərbaycanın tarixində ilk olaraq seçkilər bütün ölkə ərazisində keçiriləcək. Bu böyük tarixi hadisədir. Xalqımızın bu dəfə də doğru seçim edəcəyinə əminəm! Belə ki, 44 günlük Vətən Müharibəsi və 2023-cü ilin antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaradıb. Növbədənkənar seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbitidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib.

Deputat sözlərinə belə davam edib: "7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar Prezident seçkilərini Zəfər seçkiləri adlandırmaq olar. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözə tam əməl etdi. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, üçrəngli bayrağımızı Xankəndində, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırdı.

Bu seçkilər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər dediyi hər məsələni uğurla həyata keçirib.

"Qarabağ Azərbaycandır!" şüarını dilindən düşürməyən xalqımız, uzun illər min bir zəhmət hesabına bu şüarı yaradan və həyata keçirən ölkə rəhbərinin yeni seçkilərdə əlbəttə ki, yanında olacaq, xarici və daxili siyasətini, o cümlədən Qarabağda və ölkənin digər bölgələrində quruculuq işlərini fəal şəkildə dəstəkləyəcək. Qalib xalqın, qalib prezidenti olmalıdır və bizim seçimimiz bəllidir!Azərbaycan Respublikasının Seçki Məcəlləsi növbəti Prezident seçkilərinin keçirilməsi ilə növbədənkənar Prezident seçkilərinin keçirilməsi arasında hər hansı prosedur, yaxud müddət fərqi müəyyən etmir.

Növbəti seçkilər isə bəzi hallarda (misal üçün hərbi və fövqəladə vəziyyətlərdə) təxirə salınır, bəzi hallarda isə vaxtından əvvəl keçirilir. Seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız siyasi iradələrini sadəcə olaraq vaxtından əvvəl ifadə edəcəklər.Seçki Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Prezidenti növbədənkənar Prezident seçkilərini elan etdiyi gündən başlayaraq bir həftədən gec olmayan müddətdə seçkilər Mərkəzi Seçki Komissiyası tərəfindən çərşənbə gününə təyin edilir və 60 gün müddətində keçirilir. Həmin müddətdə Seçki Məcəlləsinə əsasən bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar, namizədlərin hamısına seçkiqabağı fəaliyyət üçün bərabər şərait təmin edilir, o cümlədən təşviqat aparılması üçün mediadan bərabər istifadə şərtləri müəyyənləşdirilir.

Nəzərə alınmalıdır ki, növbədənkənar seçkilərin keçirilməsinə dair qərar ölkədə siyasi partiyaların üzvlərinin reyestrlərinin dövlət qeydiyyatına alınması prosesinin tamamlanmasından sonra qəbul olunub. Bununla da seçkilərdə iştirak etmək üçün dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara imkan yaradılıb. Bu yanaşma ölkədə ədalətli rəqabət mühitinin təmin edildiyinin bariz nümunəsidir. Potensialı və elektoratı olan bütün siyasi qüvvələr üçün seçkilərin keçirilməsi faktı universal fürsətdir. Bu mənada seçkilərin keçirilməsi ilə bağlı olan istənilən narazıçılıq yalnız qərəzli mövqeyin və məhdud potensialın təcəssümü kimi dəyərləndirilməlidir."Siyasi partiyalar haqqında" yeni Qanuna uyğun olaraq cəmi 5 min üzv toplamaqda böyük çətinlik çəkən radikal siyasi qüvvələrin bütün uydurma mifləri puç olmuşdur. Heç bir elektoratı olmayan və ötən illər ərzində bütün etibar limitini itirmiş radikallar öz zəifliyini etiraf etmək əvəzinə növbəti dəfə təxribat və cəmiyyətdə ixtilaf yaratmaq yolunu seçib. Bu isə yalnız və yalnız siyasi acizliyin və məğlubiyyətin etirafıdır".

***Ayşən Vəli***

# Kibercinayətkarlığa qarşı hansı tədbirlər görülməlidir?

*MÜTƏXƏSSİS AÇIQLADI*






"Fərdi məlumatların qorunması və kibergigiyena kibercinayətkarlığa qarşı mübarizə tədbirlərini əhatə edir. Kibergigiyena tədbirləri fərdi məlumatları kiber insidentlər, kiber təhlükələr və kiber talançılıqdan qorumağın yollarından bəhs edir. Fərdi məlumatları qorumaq, şifrələri təyin etmək, internetdə gəzərkən oradakı tələlər, təhlükə yaradan saytlar, yükləməməli olduğumuz fayllar, proqramlar və s. - bütün bunlara diqqət etmək lazımdır. Bəzi saytlara daxil olarkən bildiriş gələ bilər ki, bu saytın SSS sertifikatı (təhlükəsizlik sertifikatı) yoxdur. SSS sertifikatı olmayan sayta daxil olanda məlumatlarımız oğurlana bilər. Brauzer bizi təhlükələr barədə xəbərdar edir, lakin çox vaxt fərqinə varmırıq və ya bunun nə olduğunu bilmirik". Bu sözləri SİA-ya İKT sahəsi üzrə mütəxəssis Elvin Abbasov deyib. Ekspert bildirib ki, sosial şəbəkələrdən istifadə edərkən də diqqətli olmaq lazımdır: "Profilimizin və ya səhifəmizin oğurlanmaması üçün bizə təklif olunan botların üzərinə tıklamamalıyıq. Şəxsi hesablarımızı oğurlamaq üçün bizə gələn təsdiq kodunu istəyirlər, onu paylaşmamalıyıq".

İKT mütəxəssisi deyib ki, həmçinin dələduzluq yolu ilə bank hesablarının oğurlanması da kibercinayətkarlığın bir növüdür: "Şəxsiyyət vəsiqəsindəki məlumatları, bank kartının cvv kodunu heç bir halda paylaşmaq olmaz. Məsələn, xaricdən mal sifariş verəndə logistika saytına daxil oluruq. Və ya xəstəxanada şəxsiyyət vəsiqəsinin FİN kodunu istəyirlər. Daha sonra həmin saytlar və ya klinikalar yolu ilə bizim məlumatlarımız ələ keçirilib, pul vəsaitlərimiz oğurlana bilər".

***Ləman Sərraf***



Elçin Bayramlı

# Mələk donunda şeytan

## Orqanların çıxarılması üçün insan qətl edilməlidir, çünki cəsəddən götürülən orqanlar heç nəyə yaramır

Son illərdə dünyada orqan köçürülməsi əməliyyatlarının sayı 30% artıb. Bu ticarətin qlobal dövriyyəsi trilyonlarla ölçülür. Əsas problem ölüm diaqnozu qoyulan şəxslərdən orqanların götürülməsi ilə bağlıdır. İlk baxışda humanist bir addım kimi görünür. Lakin məsələnin alt qatlarında dəhşətli faciələr yatır.

Əvvəla, tədqiqatçıların rəyinə görə, tam ölüm zamanı heç bir orqan götürülüb köçürülə bilmir, çünki o orqan yararsız olur- göz qişasından başqa. Həkimlər beyin ölümü diaqnozu qoyaraq hələ tam ölməmişkən xəstənin orqanlarını götürürlər. Bundan qlobal orqan mafiyası necə lazımdır istifadə edir və orqan ticarətinin dövriyyəsi trilyonlarla ölçülür.

Beyin ölümünün təyin olunma mexanizmi və bunun tam ölüm sayılması barədə dünya elmi tibb mərkəzləri həmfikir deyil. Son illərdə "beyin ölümü" faktının əleyhinə daha çox elmi faktlar ortaya qoyulur.

"Beyin ölümü" insanın tam ölümü demək deyil. Bu, xəstənin hələ sağ ikən orqanlarının götürülməsi ilə öldürülməsi halıdır. Beyin ölümü diaqnozundan sonra sağalıb yaşayan minlərlə adam var. Bu halda beyin ölümü diaqnozu qoyularaq şəxsin orqanlarının zorla götürülməsi cinayətdir. Yəni, hətta birini xilas etmək naminə belə digərini öldürmək cinayət faktıdır. Şəxs xəstəliklə bağlı şüurunu itirmiş haldadırsa, hətta ailə üzvlərinin belə buna icazə verməyə ixtiyarı, hüququ yoxdur, olmamalıdır. Yalnız bədən sahibi öz rəsmi vəsiyyəti ilə buna icazə verərsə, qəbul etmək olar, o da buna məcbur olması və ya bundan pul qazanılması haqda şübhələr olmadıqda.

Bəzi ölkələrdə orqan transplantasiyası haqda qanunun qəbul edilməsi orqan qaçaqçılığına və ticarətinə vüsət verib. Hətta bəzi müharibələr məhz bu məqsədlə törədilir. Müharibə regionlarında, yoxsul ölkələrdə böyük miqyasda cinayətlər törədilir. Əsir və ya girov götürülmüş yüz minlərlə sağlam insanın orqanları zorla alınır və varlı ölkələrə satılır.

Dünyanın ən dəhşətli terror təşkilatları bu işlə fəal məşğul olur və əsir aldığı şəxslərin orqanlarını Qərb ölkələrindəki varlılara satır. Bəzən isə, müharibə bölgəsindəki yoxsul insanlar özləri könüllü olaraq orqanlarını onlara satırlar. Bu əməliyyatlardan milyardlarla pul qazanılır. Kasıbların qurban verilməsi səbəbinə varlılar həyat qazanır. İnsana maddi qiymət qoyulur və o, hissə-hissə satılır. Bundan rəzil hərəkət və bundan böyük cinayət ola bilməz. Faktiki olaraq, dünyada orqan köçürülməsində vəziyyət belədir- varlılar alıcı, kasıblar donor rolunu oynayır! Bu da sosial və mənəvi böhranın son həddi, insan cəmiyyətinin ən rəzil sifətidir.

İtkin düşənlərin çoxunun orqan mafiyası tərəfindən qaçırıldığı haqda ciddi şübhələr var. Amerikada son 20 ildə çoxu uşaq olmaqla 400 min nəfərin itkin düşərək yoxa çıxması çox ciddi reaksiya doğurub. Əksər ölkələrdə itkin düşənlərin çoxu orqan mafiyasının qurbanı kimi qəbul olunur. Bu biznesin qlobal dövriyyəsi trilyonlarla ölçülür, qurbanları isə milyonlarla. Bəs niyə müasir insanların öz orqanları sıradan çıxır və donor orqana möhtac qalırlar? Həkimlərin fikrincə, bu, artıq həyat tərzi ilə bağlı məsələdir.

Qeyri-təbii qidalanma, qeyri-sağlam həyat tərzi, zərərli vərdişlər insanların orqanlarını sıradan çıxarır. İnsanları sağlam həyat tərzinə, sağlam qidalanmağa, yeri gəlsə, məcbur etmək lazımdır. Qida təhlükəsizliyi maksimum təmin olunmalı, zərərli vərdiş və texnologiyalara qarşı mübarizə aparılmalıdır.

Yoxsa, kimsə heç bir qaydaya riayət etmədən yaşayır, kefini sürür, nəticədə orqanı sıradan çıxır, kimsə də normal insan kimi sağlam həyat tərzi sürür, sağlam orqanı olur, sonra o varlı və harın şəxsin kefcil və bivec həyat tərzinin ağır nəticələrinin əvəzini bu kasıb olan insan ödəyir. Burda ədalət hardadır?

Orqan transplantasiyası yalnız tibb elmi tam ölmüş insanın orqanlarından istifadə edə biləcək səviyyəyə çatdıqda reallaşa bilər. Əks halda bu, cinayətkarlığı təbliğ və təbliğ edən bir sistem sayılmalıdır.

# Peşələrin mürəkkəb tərəfləri nələrdir?



***Hər sahənin özünəməxsus sadə, mürəkkəb, maraqlı yönləri var. Bəzən sahələri maraqlı edən onun mürəkkəb tərəfləri olur.***

Bir sıra müxtəlif peşə sahibləri öz sahələrinin mürəkkəb tərəflərindən çıxış edərək SİA-ya açıqlama veriblər.

**Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin Beynəlxalq jurnalistika və İnformasiya siyasəti kafedrasının müəllimi Mübariz**



**Göyüşlü** müəllimliyin məsuliyyətli bir peşə olduğunu diqqətimizə çatdıraraq qeyd edir:

”Şagird və tələbələr müəllimi özünə örnək götürür, onun dediklərini həqiqət kimi qəbul edir. Bu baxımdan da müəllimlik peşəsinin ən çətin tərəfi məsuliyyətli olmaqdır. Hesab edirəm ki, müəllim adını daşıyan şəxs çox məsuliyyətli, savadlı olmalıdır. Müəllim yalnız öz sahəsi üzrə savadlı deyil, həm də digər sahələr üzrə məlumatlı, dünyagörüşlü hazırlıqlı olmalıdır. Məsuliyyətli, savadlı, dünyagörüşlü olmaq məsələsi önəmli məqamlardır. Bu peşənin digər tərəfləri də var ki, buraya müəllimin adət-ənənələrinə, ailəyə bağlı olması daxildir. Müəllim ziyalıdır. Onun missiyası yalnız 45, 90 dəqiqədə dərs tədris etməklə bitmir, onun bir örnək olmaq, ziyalı missiyası var. Əsl bir ziyalı kimi cəmiyyətə, şagirdlərinə, tələbələrinə örnək olmağı bacaran şəxs əsl müəllimdir. Düşünürəm ki, həmin şəxsin nümunə bir insan olması müəllimliyin ən çətin, önəmli tərəflərindən biri budur”.

**Sosial Tədqiqatlar Mərkəzinin (STM) İdarə Heyətinin və Milli Məclisin İnsan hüquqları komitəsinin**



**sədri Zahid Oruc** sahəsinin mürəkkəbliyi və özəlliyi ilə bağlı xüsusiyyətlərdən danışarkən vurğulayıb: ”Millət vəkili ictimaiyyətin nümayəndəsinin, maraqlarının təmsilçilisi kimi milli məclisdə fəaliyyət aparırsa, bu halda özünəməxsus tələblər qarşısındadır. Konstitusiya hansı səlahiyyətləri müəyyənləşdirməsinə baxmayaraq Azərbaycan vətəndaşı bir bölgədə, ərazidə ictimai problemlə üz-üzədirsə, onun çözümünü parlament üzvünün əli ilə görür. Bu məsələni əhali problemi ilə bağlı olaraq söyləyirəm. Bunun üzərinə minlərlə fərdi müraciətləri əlavə etdiyinizdə kifayət manefələri uzlaşdırmaq üçün peşəkarlılıq, səbir, iradə, daimi aktivlik və s. tələb olunur. İkincisi, Azərbaycan vətəndaşı istəyir ki, onun parlament üzvü ölkənin ictimai-siyasi həyatında da aktivliyi ilə seçilsin. Buna görə qanun qurucululuğu prosesində, həmçinin, müxtəlif problemlərin müzakirəsində mövqeyini təqdim etməlisən. İnsanlarımız passivliyi qəbul etmirlər, haqlı olaraq belə məsələdə güzəştsiz mövqe tuturlar.

Üçüncüsü, şübhəsiz, Azərbaycan Avropanın ümumxoşbəxtlik arealında yerləşmir. Bura Qafqazdır, uzun illər, bəlkə də əsrlər burada gedən müharibələr, konfliktlər hər bir dövlət təmsilçisi, hakimiyyət orqanı üzərinə əlavə bir öhdəlik qoyur. Bu, ondan ibarətdir ki, sən ölkəni daxildə və beynəlxalq məkanda indiki halda Ermənistanla savaşda uğurla təmsil etməyi bacarmalısan. Azərbaycan vətəndaşı öz deputatından bu müharibədə, mübarizədə qəti önəmli mövqelər gözləyir. O, qələmi, müsahibələri, çıxışları, beynəlxalq arenadakı fəaliyyəti ilə töhfə vermiş olsun.

Şübhəsiz ki, parlament üzvü olmaq şərəfli bir vəzifədir. Bu çətinliklər öz-özlüyündə, bəlkə, dövrün xarakteri ilə bağlıdır. 2050, 2060, 2070-ci illərin parlament üzvləri üzərinə fərqli tapşırıqlar, ictimai gözləntilər qoyulacaq. İndiki halda bir səlahiyyəti daşıyaraq funksionallıq tələb olunur. O bir sıra hallarda öz vəzifələrindənkənar işləri də yerinə yetirməlidir. Yalnız o halda, o bir ictimai rəğbət əldə edə bilər. Əks versiyada onun nüfuz qazanmağı çətin olur. Bir daha qeyd edim ki, parlament üzvü şərəfli bir missiya, məsuliyyət olmağına rəğmən özünəməxsus tələblərə, mühakimələrə malikdir. Daimi göz önündədir. Hər zaman onun fəaliyyətinə bir münasinət var. O bir qala şəraitində, qəsr formatında çalışmır, onu həmişə görürlər. O öz şəxsi həyatını bir kənara qoyub dediyimiz kontekstdə, şəraitdə çalışmalıdır”.

**Jurnalist Elmir Səftərov** dördüncü hakimiyyət hesab edilən jurnalistika sahəsinin məsuliyyət və özünəməxsus xüsusiyyətləri barədə



bildirir: ”Hər bir peşə özünəməxsus xüsusiyyətləri, məsuliyyəti və çətinliyi ilə səciyyələnir. Müasir dövrdə daim yenilənən informasiya texnologiyaları media subyektlərinin də inkişafına öz təsirini göstərməkdədir. İlbəil artan xəbər saytları, sosial şəbəkələr insanların seçim şansını daha da artırır. Bu da çoxlu informasiya axını deməkdir. Hazırkı reallıqda isə cəmiyyətə dəqiq, operativ və qərəzsiz informasiyanın çatdırılması olduqca çətin məsələdir.

Təbii ki, burada ictimai və inzibati məsuliyyət məsələsi də gündəmə gəlir. Lakin jurnalistikada əsas məsələ xəbərin paylaşılmasında önə çıxır. Belə ki, doğru olmayan məlumat informasiya subyektinin nüfuzuna mənfi təsir göstərər, hətta inzibati məsuliyyət də yarada bilər. Ümumilikdə jurnalist dövlətlə cəmiyyət arasında əlaqələndirici funksiyaya da malik olduğu üçün, yazılan və deyilən hər bir cümlə böyük məsuliyyət yaradır. Jurnalist həm də ölkə daxilində ictimai rəyi formalaşdırdığı üçün hazırladığı məlumatlar onun özü üçün problem olmaqla bərabər, həm də çalışdığı qurumu da təhlükə altında qoya bilər”.

**Həkimlik peşəsini insanların taleyinə bağlayan həkim-cərrah, professor Adil Qeybulla qeyd edir:** ”Həkimlik ən məsuliyyətli peşədir. Bu, insanların taleyinə bağlıdır. Hər bir həkimin həkim əqidəsi olmalıdır. Həkimin bütün fəaliyyətinə vicdanı və əqidəsi nəzarət etməlidir. Peşə əqidəsi odur ki, insan öz bilik



və bacarığını xəstələrə sərf etməyi bacarsın. Bununla yanaşı, öz peşəsinə xəyanət etməsin. Onun xəstənin nəzarətinə həmin dövr üçün nəzərdə tutulan standartlardankənar yanaşması peşə əqidəsinin pozulması və ona xəyanətdir. Həkimliyin ən çətin tərəfi bundan ibarətdir. Bütövlükdə bu peşənin hədəfi insanın sağlamlığıdır”.

**Siyasətçinin vicdan və ədalət prinsipinə əməl etməli olduğunu ön plana çıxaran politoloq Oqtay Qasımov bildirir:** ”Peşə, ixtisas de-



dikdə anlaşılan odur ki, hər insan həyatda müəyyən mövqe tutmaq üçün, özünün cəmiyyətə faydalı olmasını, maddi cəhətdən təmin etməsi üçün peşəyə yiyələnməlidir. Hər peşənin özünəməxsus spesifik xüsusiyyətləri var. Eyni zamanda, hər peşəyə yiyələnməyin də ortaq tərəfləri var. İnsan bir peşəni öyrənərkən bütün diqqətini həmin sahəyə yönəltməlidir, sənətini sevməlidir. Şəxsin sənətini sevmədiyi halda, həmin peşəni yaxşı öyrənməsi, sonra qədər işlətməsi mümkün deyil. Bu baxımdan, sənətlərin hər birinin spesifikasından asılı olaraq mürəkkəb tərəfləri var. Bu mürəkkəb tərəfləri öyrənmək üçün yalnız səbir, təmkin, inadkarlıq lazımdır. Asan, çətin peşə anlayışından çox, bir insanın həmin sahəyə yiyələnməsi üçün iradə, səbir, dözüm, fədakarlıq əsas götürülməlidir.

**Siyasətçi olmağa gəldikdə isə, bu sahə çox mürəkkəbdir. Bir yunan sözü var:** ”Elmlərin şahı fəlsəfədir, siyasət isə fəlsəfənin tacıdır”. Siyasət elmlərin, peşələrin ən çətinidir. Siyasətlə məşğul olan insan birbaşa cəmiyyətlə məşğul olur. Cəmiyyətin, dövlətin idarə edilməsilə məşğul olan şəxsdir. Bu baxımdan, siyasətçi olmaq üçün çox geniş diapazonlu bilgilərə sahib olmaq lazımdır. Buraya tarix, coğrafiya, fəlsəfə, təbiət elmləri, cəmiyyət haqqında elmlər, sosiologiya, psixologiyanı bilmək daxildir. Burada səbirli şəkildə öyrənmək, davranışlara diqqət yetirmək, cəmiyyətin əhval-ruhiyyəsini nəzərə almaq, ən önəmlisi vicdanlı və dürüst olmaq lazımdır. Siyasətçi üçün ən önəmli kriteriyaların önündə gələn bu məsələlərdir. Siyasətçi vicdan, ədalət prinsiplərini nəzərə almırsa, onun uğur qazanması mümkün deyil. Buna nəzərən siyasətçi olmaq kifayət qədər çətin bir işdir. Uğurlu siyasətçi olmaq, cəmiyyətin etimadını qazanmaq isə daha mürəkkəbdir. Siyasətçi olmaq peşələrin ən çətinidir, desək, yanılmarıq”.

**Aparıcılıq peşəsinin çətin tərəflərindən söz açan teleaparıcı, siyasi şərhçi Tural İsmayılov:** ”Efir məsuliyyət tələb edən bir sahədir. Özəlliklə canlı yayımda bu məsuliyyət iki qat artır. Canlı olmayanda belə düzgün mesajlar vermək lazımdır. Orada səni izləyən insanlar respublikanın müxtəlif bölgələrindən, yaş katoqeriyalarından ola bilər. Burada




normal, bu peşəyə həqiqətən hörmət edən peşəkar aparıcı üçün bu məsuliyyət duyğusu çox çətindir. Bəzi adamlar ki, bu gün teleaparıcıları çox primitiv və bəsid kimi görə bilər, amma bu çox ciddi bir peşədir. Vizual medianın ən çətin sahələrindən biridir. Peşəkar aparıcı üçün ən çətin məsələ xalqa verdiyi mesajlardır. Bir aparıcı xalqa nə dediyini yaxşı dərk etməlidir. Danışığına diksiyasına, ritorikasına diqqət yetirməlidir. Bütün bunları cəmləşdirdikdə aparıcılıq kifayət qədər stressli, çətin peşə hesab edilə bilər”.

**Musiqi incəsənətin ən mürəkkəb növlərindən biridir - deyən musiqişünas Lalə Hüseynova bildirib:** ”Səbəb isə bu peşəyə uşaq yaşlarından başlamaq lazım gəlir. Nə qədər tez başlasaz, bir o qədər yaxşıdır. Əllər alətə otura bilir, xüsusilə də bu pianoçu və skipkaçılara aiddir. Buna görə də çox erkən başlamaq



lazımdır. Bu, uzun bir yoldur. Bir peşəkar muqisiçi yetişdirmək üçün 15,16 il vaxt lazım olur. Digər peşələrə 4, 5, 6 il oxumaqla yiyələnmək olar. Musiqi peşəsi isə erkən yaşdan başlayır. Buraya istedadla bərabər peşəkar müəllimlər lazımdır. İstedadı ortaya çıxarmaq üçün sözügedən müəllimlər, ustadlar, mühit gərəkdir. Bu cür peşəkarların qədrini bilmək lazımdır. Ona görə ki, bu işə başlayana neçə illər lazımdır. Pianoçu, xanəndəçi və s. bu işə neçə il öncədən başlayırlar”.

**İqtisadçı Natiq Cəfərli iqtisadiyyatın ən çətin tərəflərini açıqlayır:** ”İqtisadçı peşəsinin ən çətin tərəf statistik məsələlərinin dürüstlüyüdür. Azərbaycanda bu xüsusilə ak-



tualdır, çünki statistik məlumatlar bir mənbədən-Dövlət Statistika Komitəsindən alınır. Bir çox ölkələrdə alternativ mənbələr var. Digər mənbələrə istinad etmək inkişaf etmədiyindən ancaq bir mənbədən makro-iqtisadi olsun, ya başqa göstəricilər olsun, bir mənbədən görülür, bilinir, yayılır. Onları başqa mənbələr ilə tutuzdurmaq mümkün deyil. Ən böyük çətinliklərdən budur. Biz rəqəmlərlə çalışırıq. Ən vacib olan rəqəmlər, rəqəmlərin dürüstlüyüdür”.

**Yazıçı olmağın ən çətin tərəfini başqalarından fərqlənməkdə görən yazıçı İradə Aytel:** ” Yazıçı olmaq hamı kimi yaşamamaq, romantik olmaq, özünə qapanmaqdır. Bundan əlavə, yazıçı olmaq maddi çətinliyi, əzab-əziyyəti gözə almaq deməkdir. Məsələn, hazırda bir kitab üzərində işləyirəm. O kitaba o qədər bağlanmışam ki, (həm ruhum, həm də cismimlə) işimdən uzaq düşmüşəm. Ehtiyacımı qarşılamaq üçün məcburam ki, işləyəm. Yazıramsa, işləyə bilmirəm. İşləyirəmsə, yaza bilmirəm. Nəticə olaraq yazmaq ehtirası hər şeydən önə keçir, yazıram...

Bilirəm yazdığım mənə çörək, su verməyəcək. Yazdığım əsəri nəşriyyat pul ödəyib məndən almayacaq, xarici kitabçılarla müqavilə bağlayıb, qonorar almayacam, dövlət də mənə heç bir vəsait ayırmayacaq. Amma yazıram, ac-susuz qalsam belə...

Bütün bunlara rəğmən, yazıçı olmaq çox gözəldir. Mütaliə insanın yaradıcılığını cilalayırsa, yazmaq da ruhu cilalayır”.

**Peşəsini sevən psixoloq Aynur İsmayılova deyir:** ”Hər peşənin çətin və asan tərəfləri var. Peşəsini sevən psixoloq, həkim, müəllim üçün peşəsinin çətin tərəfləri də ona üzücü gəlmir. Peşəmizin çətin tərəfləri ola bilər. Bizim peşəmiz insan ruhu, düşüncələri ilə işləyən tərəfdir. Bizim peşədə mənəvi yorğunluq daha çox olur. Hər bir peşəkar psixoloq isə həmin mənəvi yorğunluğunu təbiət qoynunda keçirərək, uşaqlarla oynayaraq, mühitini dəyişərək çıxır. Peşəsini sevən insan üçün sahəsinin çətin tərəfləri ona bir istirahət vaxtı kimi gəlir”.

**Avto-nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov isə diqqətimizə çatdırır:** ”Peşəmin çətinliyi odur ki, ajiotaj yaradacaq informasiya verməli deyilsən, media ilə işləməyi bacarmalısan. Həmçinin, hər zaman formada olmaqla yanaşı dürüst olub, yalançı proqnoz verməməlisən”.

*Çinarə Muradova*

# Növbəti zəfərin astanasında

## 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkiləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisidir



Azərbaycan dövlətinin əldə etdiyi bütün uğurlara görə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu siyasəti böyük əzmlə və qətiyyətlə davam etdirən ölkə Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevə borcludur. Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi varisi Cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində ölkəmizdə bütün sahələrdə sürətli inkişafa nail olunub, insanların sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb. Əldə olunan uğurların davamı xarakter alacağını bildirən Müzəffər Ali Baş Komandan çıxışlarının birində demişdir: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik". Ölkə Prezidenti İlham Əliyevin müdrik islahatları ilə Azərbaycanı iqtisadi baxımdan qüdrətli dövlətə çevirib. Vaxtaşırı olaraq şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Ötən dövr ərzində şəhid ailələrinə və qazilərə 13560 mənzil və fərdi ev verilib. Qazilər avtomobillərlə təmin olunub, xarici ölkələrdə müalicə və müayinələri təmin edilib. Şəhid ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının göstəricisidir.

### "Əsrin müqaviləsi"nin davamı "Yeni əsrin müqaviləsi"

Gündən-günə inkişaf edən iqtisadi artım enerji sektorunda da geniş şəkildə davam etdirilir. 1994-cü ilin sentyabrın 20-də imzalanan və dünyada böyük maraqla qarşılanan "Əsrin müqaviləsi"nin davamı olan "Yeni əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın dünyanın enerji təhlükəsizliyində yeri və rolunu möhkəmləndirir. "Əsrin müqaviləsi"nin 2050-ci ilədək uzadılması ölkəmizin etibarlı və stabil inkişaf edən dövlət kimi bütün dünyada nüfuzunun yüksəlməsi, əhalimizin rifahının təminatı baxımından böyük strateji əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması Azərbaycanın Avrasiyanın geosiyasi nəqliyyat mərkəzinə çevrilməsi yolunda atılmış ən mühüm addımdır. Milyondan artıq sərnişin, 17 milyon tondan artıq yük daşınması Azərbaycanın Cənubi Qafqazın iqtisadi, siyasi mərkəzinə çevrilən dövlət olduğunu təsdiqləyir. Prezident İlham Əliyevin verdiyi sözlərə istisnasız əməl edən, sözü ilə əməlinin üst-üstə düşən, sözünün dəyərli və keçərli olduğunu görən böyük siyasi xadim kimi tanıyır. 2003-cü il prezident seçkilərində Cənab İlham Əliyev doğma xalqına müraciət edərək qeyd etmişdir ki, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa edəcək. Vədini əməli işi ilə yerinə yetirən Prezident İlham Əliyev ordu quruculuğunu ən yüksək səviyyədə həyata keçirə bildi. Dünyada ən güclü 50 ordu sırasında yer tutan Azərbaycan ordusu bu reytinqini 44 günlük Vətən Müharibəsində əldə etdiyi parlaq qələbə ilə daha da möhkəmləndirdi. Hələ 2016-cı ilin aprelində qəhrəman Ordumuz Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü.

2020-ci sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı. Şuşa şəhərinin işğaldan azad edilməsi ilə düşmən diz çökdü və təslim olmaqla ağ bayraq qaldırdı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".





Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətində onu da fəxarət və qürur hissi ilə qeyd etmişdir ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.: "Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox". Həmin ilin dekabrın 10-da Bakının Azadlıq meydanında Zəfər paradı keçirildi. Paradda 44 günlük Vətən Müharibəsində hər məqamda Azərbaycan xalqının, Prezidentinin yanında olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etdi. Zəfər Paradında Azərbaycan Ordusunun döyüş meydanlarında məhv etdiyi, qənimət götürdüyü düşmənin hərbi texnikaları da nümayiş etdirildi.

### Xankəndi şəhərində keçirilən hərbi parad zəfər salnaməmiz idi

Üç il sonra daha və yeni möhtəşəm qələbəyə imza atıldı. Sentyabrın 19-da başlayan və cəmi 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Qarabağdakı separatçıların silah-sursatları və canlı qüvvələri məhv edildi. Baş terrorçuların əksəriyyəti isə həbs olundular. Hazırda onlar istintaq altındadırlar və layiq olduqları cəzanı almaq üçün məhkəmələrini gözləyirlər. Oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev üçrəngli Bayrağımızı ucaltdı. Ali Baş Komandan, Prezident İlham Əliyev Bayrağımızı şəhərin meydanında ucaltdıqdan sonra xalqa müraciətində demişdir: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək". Prezident İlham Əliyev 7 noyabr 2023-cü ildə daha bir qürurverici anları xalqımıza bəxş etdi. Xankəndi şəhərində hərbi parad keçirildi və paradda separatçılardan götürülən hərbi texnikalar nümayiş etdirildi. Bununla da Ermənistanın Azərbaycan dövlətinə və xalqına qarşı etdiyi pisliklərə, vandalizm aktlarına, işğalçılıq siyasətinə sərt və qətiyyətli cavab verildi. Nümayiş etdirildi ki, Azərbaycan xalqı qalib xalqdır və bu xalqa yalnız zəfər yaraşır.

### Xalq yeni zəfərə hazırlaşır

Hədəf və məqsədlərə isə ancaq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə nail olmaq olar. Bu baxımdan, xalq yeni zəfərə hazırlaşır. Bu zəfərin yeri və ünvanı seçki məntəqələri olacaq. Fevralın 7-də keçirilməsi planlaşdırılan seçkilərdə xalq Cənab İlham Əliyevə olan sevgisini, məhəbbətini, dəstəyini böyük fərəhlə nümayiş etdirəcək. Ona görə də 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərini Zəfər seçkiləri adlandırmaq olar. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözə tam əməl etdi. Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, üçrəngli bayrağımızı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırdı. Bu seçkilər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər dediyi hər məsələni uğurla həyata keçirib. "Qarabağ Azərbaycandır!" şüarını dilindən düşürməyən xalqımız, uzun illər min bir zəhmət hesabına bu şüarı yaradan və həyata keçirən ölkə rəhbərinin yeni seçkilərdə əlbəttə ki, yanında olacaq, xarici və daxili siyasətini, o cümlədən Qarabağda və ölkənin digər bölgələrində quruculuq işlərini fəal şəkildə dəstəkləyəcək. Regionda tam müstəqil bir ölkənin olmasını və Azərbaycanın Qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının qarşısını almaq üçün siyasi sistemin gücləndirilməsi strateji əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, növbədənkənar prezident seçkiləri siyasi partiyaların üzvlərinin reyestrlərinin dövlət qeydiyyatına alınması prosesinin tamamlanmasından sonra keçirilir. Bununla da seçkilərdə iştirak etmək üçün dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara imkan yaradılıb. Bu yanaşma ölkədə ədalətli rəqabət mühitinin təmin edildiyinin bariz nümunəsidir. Söz yox ki, uduzacaqlarını indidən başa düşən dağıdıcı ünsürlər qidalandıqları xarici qüvvələrin tapşırıqlarına uyğun olaraq müəyyən təxribatçı addımlar atacaqlar, qərəzli açıqlamalarla çıxış edəcəklər. Təbii ki, bunların heç biri keçərli olmayacaq. Birincisi ona görə ki, seçkilərin nəticələrini xarici qüvvələr deyil, Azərbaycan xalqı müəyyənləşdirir, ikinci isə, ölkəmizdə Qalib, Müzəffər Sərkərdə İlham Əliyevlə rəqabət apara biləcək heç bir qüvvə yoxdur və ola da bilməz. Ona görə də, dağıdıcı ünsürlərin deyəcəkləri qərəzli fikirlər boşboğazlıqdan başqa bir şey olmayacaq.

**İLHAM ƏLİYEV**

# Milli dəyərlər dəyərdən düşür?



**Dəyişən dünya, transformasiya olan adətlər, yenilənən ənənələr fonunda öz kökünə, soyuna, milli kimliyinə bağlı qalmaq da asan olmur. Axı hər bir millətin tarix boyunca inkişaf etmiş, zaman-zaman az, ya çox dəyişmiş milli dəyərləri var və hər bir xalqı millət kimi formalaşdıran da bu dəyərləridir. Milli dəyər anlayışı çox zaman ümumi rahatlıq və vətən naminə birlikdəlik nümayiş etdirməkdir. Dövlətlər başqa dövlətlə münasibətlərində milli düşüncə və dəyərləri nəzərə alır, siyasət bu dəyərlərə görə aparılır, düşünülür, ölçüb-biçilir.**

Məhz o səbəbdəndir ki, Azərbaycanda milli dövlətçilik və milli-mənəvi dəyərlər sıx daxili vəhdətdədir. Dövlət idarəsi, cəmiyyətin təşəkkülü də bu fondadır. Yalnız milli kimliyi bəlli olan və özünü bir millət kimi dərk edən xalqın bu cür inkişaf konsepsiyası ola bilər. Ümummilli lider Heydər Əliyev nəinki bu konsepsiyanı yaratdı, həm də çox böyük ustalıqla, səbir və təmkinlə həyata keçirdi. "Mən fəxr edirəm ki, azərbaycanlıyam!"- deyən lider bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu, bunu dövlətin ən vacib vəzifəsi etdi.

O deyirdi ki, azərbaycançılığımızı, milli ideologiyamızı, mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirməliyik. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və mənəvi dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ümummilli Lider yaxşı başa düşürdü ki, aydın və dərk olunmuş milli ideologiya hər bir xalqın irəliyə doğru inkişafının yol göstərəni və bələdçisidir.

Heydər Əliyev islamiyyətlə bağlı olan dini-mərasim və adətlərin də layiqincə keçirilməsi üçün hər cür şərait yaratmışdı. Buna misal olaraq 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbəni ziyarət etməsi, Mirmövsüm Ağa ziyarətgahında din xadimləri və möminlərlə görüşməsi, Bibiheybət məscid-kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi Ulu Öndərin dini- əxlaqi dəyərlərə sadiqliyinin, Allahını və peyğəmbərini sevən imanlı bir insan olmasının real təsdiqi idi. Prezident İlham Əliyev də onun yolunu davam etdirir, milli adətlərə, dini və milli dəyərlərə ciddi yanaşır.

Təəssüflə qeyd etmək istərdik ki, milli adətlərin yavaş-yavaş əriyib yoxa çıxması tarixi boyu bu adətlərlə yaşayan cəmiyyətlərdə daha çox nəzərə çarpır. İndi "böyüyə hörmət, kiçiyə diqqət" məsələlərinə əvvəlki kimi önəm verilmir. Böyüklərdən tez-tez eşidirik, "zəmanə korlanıb" deyə. Zəmanəni korlayanlar da bizik- insanlar. Heç bir millətin adəti pis deyil, bu sözsüz. Hər bir adətdə başqa gözəllik var, amma söhbət, sözün əsl mənasında, normal adətlərdən gedir. Karnavallarda lüt soyunub küçələrə çıxmaq, eynicinslərin evlənməsini milliləşdirmək, it-pişiklə ailə qurmaq kimi "adətlər"dən bəhs etmirik.

Azərbaycanın minillərə dayanan adət-ənənəsi, gen yaddaşımıza hopmuş dəyərləri var. Zaman dəyişdikcə insanların psixologiyası, yaşam tərzi, milli dəyər anlayışı da müəyyən qədər dəyişə bilər. Nəsillərin dəyişilməsi ilə dəyərlərin mahiyyəti də dəyişir. Bir vaxtlar insanların milli dəyər dediyi adətlərin indi çoxu yoxdur, bir çox milli ənənələrimiz insanlar tərəfindən cahillik və "geridəqalmışlıq" hesab olunur.

Məsələn, valideyn övladına axşamlar evə saat 8-dən gec gəlməməyi tapşırırsa, atdığı hər addımı bilmək istəyirsə, qızlara çox acıq-saçıq geyimlər qadağan edilirsə, oğlanlara müəyyən məhdudiyyətlər qoyulursa, bu, bizim gənclər tərəfindən "geridəqalmışlıq" hesab olunur. Amma unutmaq lazım deyil ki, türk millətlərinin milli dəyər anlayışı ailədən başlayır. Aydındır ki, hər bir azərbaycanlının da xüsusi önəm verdiyi amillərdən biri ailədir. Bizim psixologiyamızda ailə faktoru xüsusi çəkiyə malikdir, inteqrasiyaya meyil ediriksə, düşünməliyik ki, yad mədəniyyətlərdən nəyi mənimsəyirik? Yeni adət cəmiyyətə necə təsir edəcək? Əgər bu suallara tutarlı cavabımız varsa, o zaman dəyişiklik barədə düşünmək olar.

Bu gün dövlətimiz milli dəyərlərimizin qarantına çevrilib, ölkə başçısı İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir. Dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli dəyərlərini qoruması önə çəkilir. "Gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərməğan edilməlidir" prinsipi əsas götürülür.

Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti, məhz milli mədəniyyət və dövlətçilikdir. Dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Bu istiqamətdə atılan hər bir addım qədim zamanlardan bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.

Müasirlik milli kökü, adət-ənənəni itirmək demək deyil, adət-ənənə, milli-mənəvi kökümüz elə müasirlik ənənələrinin fonunda da var ola bilir və biz inkişaf edən Azərbaycanın timsalında bunu görə bilirik. Dünyanın mənəviyyatında böyük problemlərin meydana çıxdığı bu illərdə kökünə bağlı qalmaq böyük güc və bacarıqdır.

***Lalə Mehralı***



# "Yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətləri daha da inkişaf edəcək"

"ABŞ və Azərbaycan arasındakı münasibətlər artıq bərpa olunur. Bir müddətdir ki, bu iki dövlət arasında soyuq küləklər əsirdi. Buna da səbəb noyabrın 15-də ABŞ-ın dövlət katibinin köməkçisi Ceyms O'Braynın ölkəmizlə bağlı səsləndirdiyi qərəzli fikirləri, əsassız bəyanatlar verməsi idi. Təbii ki, bu bəyanatlar Azərbaycan tərəfindən rədd edildi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib. Onun sözlərinə görə, bu hadisədən bir müddət sonra ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Prezidentinə zəng edərək münasibətləri normallaşdırmaq üçün Ceyms O'Braynın Bakıya gəlməsinə icazə verilməsini xahiş etdi: "Prezident İlham Əliyev buna razılıq verdi və bu məsələnin qərəzli olduğunu onların diqqətinə çatdırdı.



Bildiyiniz kimi, dekabrın 6-da O'Brayn Azərbaycan Prezidenti tərəfindən qəbul edildi. Azərbaycan-ABŞ münasibətləri, işbirlikləri bir daha bu görüşdə nəzərə çatdırıldı. Eyni zamanda, Azərbaycan Prezidenti ilə görüşdən sonra Ceyms O'Brayn öz sosial şəbəkə hesabında görüşün yüksək səviyyədə keçməsi və bu iki ölkə arasında münasibətlərin daha da inkişaf edəcəyi haqqında qeyd edib. İkitərəfli münasibətlər qaydasına düşəcək. Bugünlərdə məlumat verilib ki, yaxın günlərdə Vaşinqtonda Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşü gözlənilir".

Politoloq sözlərinə davam edərək bildirib ki, Azərbaycanın yüksək səviyyəli məmurlarının Vaşinqtona səfəri artıq başlayıb: "Eyni zamanda, son günlər Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi bağlanması istiqamətində də irəliyə doğru addımlar atılır. Dünən axşam saatlarında Ermənistanın 32 əsirinin bağışlanması və bizim 2 nəfər əsirimizlə onların dəyişdirilməsi prosesi baş verdi. Bu, həqiqətən həm ABŞ-da, həm də Avropa ölkələrində yüksək səviyyədə qarşılanıb. Çünki bütün bunlar sülh müqaviləsinin imzalanmasına xidmət edən amillərdir.

Hesab edirik ki, yaxın gələcəkdə ABŞ və Azərbaycan arasındakı əlaqələr inkişaf edəcək. Təbii ki, ABŞ siyasətinə təsir göstərən qüvvələr var. Onların əksəriyyəti erməni lobbisinin maliyyəsi ilə konqresə seçilən dövlət məmurlarıdır. Lakin ABŞ hegemon dövlətdir. Onlar Cənubi Qafqazda lider ölkə olan Azərbaycanı daha çox qiymətləndirirlər".

***Ləman Sərraf***

# "Regionda əməkdaşlıq platformaları müstəvisində axtarış gedir"

**"Xəzəryanı ölkələr iqtisadi-siyasi bir platforma olaraq formalaşmasa da dialoqun qurulması üçün toplantılar keçirilir. Eyni zamanda xarici işlər nazirlərinin toplantısı da sübuta yetirdi ki, burada dialoq formatı var". Bu barədə SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.**

Onun sözlərinə görə, bu formatın daha dayanıqlı və konkret olmasını arzulayan ölkələr mövcuddur: "Bunların arasında biz son dövrlərdə İranın aktivlik nümayiş etdirdiyini şahidi oluruq. Baxmayaraq ki, Xəzərin statusu haqqında konvensiyanın razılaşdırılmasında uzun illər boyu ən aqressiv mövqe nümayiş etdirən də məhz İran İslam Respublikası idi. Bu ölkənin Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsində təklif etdiyi yanaşmalar nəticə etibarilə nə mövcud reallıqlara, nə də beynəlxalq hüququn prinsiplərinə uyğun gəlirdi. Çünki İranla SSRİ arasındakı sərhəd Astara-Həsənqulu xətti üzrə müəyyənləşmişdi. Yəni beynəlxalq müqavilələrin yenidən gündəmə gətirilməsi de-fakto ərazi iddiaları kimi qiymətləndirilə bilərdi.



E.Mirzəbəyli bildirib ki, bütün hallarda müxtəlif formatlarda əməkdaşlığın həyata keçirilməsi Azərbaycan tərəfindən təşviq olunan məsələdir: "Ölkəmiz indiyə qədər bir neçə fərqli formatlarda əməkdaşlıq platforması təklif edib. Bunların sırasında İran-Türkiyə-Azərbaycan əməkdaşlıq platforması da var. 3+3 indi isə 3+2 platforması da məhz Azərbaycanın təşəbbüsü ilə həyata keçirilir. Biz son olaraq yenə də İranla bu formatda görüşlərin baş tutduğunun şahidi oluruq. Regionda əməkdaşlıq platformaları müstəvisində axtarış gedir. Təhlillər aparılır və onların ən uyğunu istiqamətində də addımların atılması zəruridir. İndiki halda Xəzəryanı ölkələrin birləşməsi, təşkilatlanması bir araya gəlməsi nəzəri olaraq maraqlı bir ideya kimi görünə bilər. Amma bunun altında təklif olunan məqamlar nədən ibarətdir? Bu platforma hansı məqsədə xidmət edəcək? Bununla bağlı yanaşma mahiyyət etibarilə aydın deyil.

Şərhçi sonda qeyd edib ki, İranın birdənbirə Xəzər hövzəsi ölkələri ilə bağlı gediş etməsi də maraqlı məqamlardan biridir: "Çünki bəlli olduğu kimi orta dəhlizin seqmenti əsasən Xəzər dənizi üzərindən keçir. İran bu günə qədər əsasən cənub dəhlizinə maraq göstərirdi. Amma indiki halda İran XİN-in yanaşması elə düşünməyə əsas verir ki, ya İran bu prosesə inteqrasiya olunmaq istəyir, ya da hansısa qaydada öz iştirakını arzulayır. Hazırda regiondakı vəziyyəti və prioritetləri nəzərə alsaq İranın maraqları bu istiqamətdə özünü büruzə verə bilər. Ümumən bu görüş Xəzəryanı ölkələr arasındakı münasibətlərin inkişafı gələcəkdə əməkdaşlıq perspektivlərinin müəyyənləşməsi baxımından əhəmiyyətlidir. Amma hansı nəticələr verəcəyini gələcək göstərəcək".

***Rəşid Qarayev***

# "İşğaldan azad olunmuş torpaqlarımıza yenidən həyat qayıdır"





**"44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfər müstəqil ölkəmizin daha da inkişafı və güclənməsi, beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsi üçün yeni imkanlar açıb. Eyni zamanda, qalib dövlətimiz regionda yeni reallıqlar yaradıb. Biz bu gerçəklikləri müharibənin başa çatdığı üç il müddətində aydın şəkildə müşahidə edirik. Əlbəttə ki, bu möhtəşəm nailiyyətlər Müzəffər Ali Baş Komandanımız, Prezidentimiz cənab İlham Əliyevin adı ilə bağlıdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Fatma Yıldırım deyib.**

Deputat bildirib ki, bu gün Azərbaycan xalqı olaraq əsas missiyamız işğaldan azad edilmiş ərazilərimizin bərpa edilməsi, keçmiş məcburi köçkünlərimizin öz doğma yurdlarına qayıtmasını təmin etməkdən ibarətdir. Artıq həmin torpaqlara həyat qayıdır. Zəngilanın Ağalı kəndi Böyük Qayıdışın ilk müjdəsi oldu. Bundan sonra Talış kəndinə, Laçın şəhərinə bir qrup əhali köçürüldü. Eləcə də, Füzuli şəhərinin sakinləri də qayıdışın sevincini yaşamaqdadırlar. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdışın təmin olunması yeni strateji mərhələdə Azərbaycanın əsas prioritetləri sırasında yer alır. Söhbət bütünlüklə dağıdılmış ərazilərin minalardan təmizlənməsindən, şəhər və kəndlərin bərpasından, zəruri infrastruktur qurulmasından gedir.

Döyüş meydanında düşməni diz çökdürən və kapitulyasiyaya məruz qoyan qalib Azərbaycan bərpa və quruculuq işlərini də qısa müddətdə və yüksək səviyyədə həyata keçirmək əzmindədir. Ötən dövrdə reallaşdırılan layihələr onu deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək. Azərbaycan dövləti bu kimi amilləri nəzərə alaraq işğaldan azad edilmiş ərazilərin ölkənin digər bölgələrinə reinteqrasiyasına qısa müddətdə nail olunmasına güclü siyasi iradə sərgiləyir. Prezident İlham Əliyevin imzaladığı müvafiq sənədə əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması həm bu ərazilərin iqtisadi potensialından səmərəli şəkildə istifadə edilməsi, həm də reinteqrasiya proseslərinin sürətləndirilməsi baxımından xüsusi önəm daşıyır.

"Bilirsiniz ki, cənab Prezidentin müvafiq Sərəncamı ilə Böyük Qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramı təsdiqlənib. İşğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı işləri cənab Prezidentin müvafiq Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahı uğurla icra etməkdədir. Onu da qeyd etməliyəm ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası üçün dövlət büdcəsindən kifayət qədər vəsait ayrılır. Azərbaycan bu işləri kənardan heç bir yardım olmadan, öz gücü ilə həyata keçirir. Hər il bu məqsədlə milyardlarla manat vəsait ayrılır. Bu, Böyük Qayıdış prosesinin daha intensiv şəkildə həyata keçirilməsinə, sürətləndirilməsinə imkan verir. Eyni zamanda, dövlətimizin başçısının Fərmanı ilə yaradılan Qarabağ Dirçəliş Fondu da işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması işinə öz töhfələrini verməkdədir. Qarabağ Dirçəliş Fondu yarandığı vaxtdan indiyə qədər bir sıra önəmli layihələr, təqdimatlar həyata keçirib. Hazırda azad edilmiş bölgələrdə quruculuq-bərpa işlərində dost ölkələrin, xüsusilə qardaş Türkiyənin şirkətləri də fəal iştirak edirlər. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işləri təkcə dövlət qurumlarının vəzifəsi olmamalıdır. Düşünürəm ki, Qarabağın dirçəlişi harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının qarşısında duran mühüm vəzifələrdən biridir. Ona görə də, bu prosesdə bütövlükdə cəmiyyətimiz fəal olmalıdır. Biz qəti əminik ki, Azərbaycan dövləti və xalqı işğalçı erməni vandalların dağıtdığı bütün infrastrukturu yenidən bərpa edəcək, Qarabağın dağıdılmış bütün dini -tarixi-mədəni abidələri dövlətin himayəsi altında olacaq, Qarabağ və Şərqi Zəngəzur yenidən Vətənimizin ən inkişaf etmiş dilbər guşələrindn birinə çevriləcək",-deyə Fatma Yıldırım vurğulayıb.

# Müxalifətin əndişəsi məğlubiyyətlərini indidən qəbul etmələrini deməyə əsas verir



Son günlər Azərbaycan Respublikasında növbədənkənar Prezident seçkilərinin keçirilməsi haqqında məlum qərar bəzi siyasi müxalif qüvvələrini ciddi narahat edib. Mətbuatda, sosial şəbəkələrdə bundan əndişələnən siyasi müxalifətin heç bir əsası olmayan iddia və ittihamları cəmiyyətin sağlam qüvvələrini narahat etməyə başlayıb. Məsələ ilə bağlı Azadlıq Hərəkatçıları İctimai Birliyinin sədri Təhmasib Novruzovun fikirlərini təqdim edirik. Azərbaycanda fevralın 7- də növbədənkənar Prezident seçkilərinin keçirilməsi haqqında qərarın verilməsi, səmimi deyək ki, hər kəs üçün gözlənilməz oldu. Yəni bu gün Azərbaycan seçicilərinin mütləq əksəriyyəti, Azərbaycanın daha da qüdrətli olmasını, regionun lider dövləti imicini qoruyub saxlamasını, dünya birliyindəki ilbəil yüksələn nüfuzunu artırmaqda davam etməsini istəyən hər kəs indiki siyasi kursün davamını və Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyini birmənalı dəyişməz hesab edir. Belə olduğu halda, növbədənkənar seçkilərə gedilməsi qərarı haradan qaynaqlandı sualını çox adamlar verə bilər. Ancaq son iyirmi ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin atdığı bütün addımların min dəfə düşünülüb, hesablamalar aparılaraq atıldığını hər kəs bilir. Bu addımların Azərbaycanı fenomenal sürətlə inkişafa, qələbədən qələbəyə apardığını da yaxşı bilirik. Həmçinin, Prezidentin bir fikrini də xatırlamalıyıq: "Mən nəyi, nə zaman və necə etməyi daha yaxşı bilirəm!" Bu baxımdan, çoxlarının gözləmədiyi halda ölkə başçısının belə bir qərar verməsində, cəmiyyət olaraq nəsə axtarmır və bu qərarın da Azərbaycanın yeni, möhtəşəm nailliyyətləri naminə atıldığını birmənalı qəbul edirik. Qəbul etmək istəməyənlər isə, ya dünyada gedən prosesləri doğru-düzgün dərk edə bilmirlər, ya da...

Məsələ ikinci "ya da"dadır. Özünü ana, ata, dədə, baba və s. müxalifət kimi cəmiyyətə və dünyanın bəzi güclərinə sırımağa çalışan "sevimli" müxalif qüvvələrimizin bəzilərinin əndişə keçirmələrini anlamaq üçün bu "ya da"nı bir az açmaq istərdim. Birincisi, vaxtilə böyük siyasi xadimlərin dediyi kimi, aiyasi hakimiyyətə gəlmək istəyən hər bir siyasi qüvvə sonuncu seçkilər başa çatandan dərhal sonra növbəti seçkilərə hazırlaşmalı, hər bir fövqəladə qərara hazır olmalıdır. Bizim bu ərköyün müxalifətimiz (Başda Əli Kərimli və onun qul-beçələri Cəmil Həsənli, Tofiq Yaqublu və digərləri olmaqla-T.N.) fevralın 7-nə seçkilər təyin edilən kimi çığır-bağıra ona görə başladılar ki, onlar bu aydın, siyasətçilər üçün olan həqiqəti unudublar. İkincisi, bunların seçkilərdə qalib gəlmələri ölünün yenidən dirilməsi qədər mümkünsüz olduğunu anlamamalarıdır. Yaxşı bilirlər ki, bu gün Azərbaycanda (Həm də təkcə Azərbaycanda deyil, bütün türk dünyasında və bütün əzilən xalqlar arasında-T.N.) İlham Əliyevə tükənməyən bir sevgi var. Bu sevgi isə bir dəfə deyil, on dəfə, həm də dünyanın bütün gücləri müdaxilə etsə belə, xalqın qismətinə allahın bəxş elədiyi belə qüdrətli lideri itirmək istəməyən xalqa təsir göstərə bilməz. Deməli, xaricdəki bütün ağaları birləşib kömək eləsə belə əlilərin, vəlilərin seçkidə səs qazanması mümkünsüzdür və bu mümkünsüzlüyü yaxşı bildiklərindən qabaqdangəlmişlik etmək onların yeganə çıxış yolu kimi qəbul edilməlidir. Üçüncüsü, AXCP neçə ildir ki, 200-300 adamı başına yığıb, vaxtından illər keçmiş qurultayını keçirə bilmir. Həm də qanunla tələb olunan beş min imzanı toplayıb Ədliyyə Nazirliyinə yenidən qeydiyyat üçün təqdim edə bilmir. O zaman Prazidentliyə namizədliyinin qeydə alınması üçün tələb olunan qırx beş min imzanı necə toplayacağını düşünmək və bu biabırçı vəziyyətin örtbasdır eləmək üçün "şaxsey-vaxsey" eləmək zorundadır. Dördüncü, beşinci... Hətta onuncu səbəb də sadalamaq olar. Amma bu üç səbəblə, hələlik, kifayətlənmək istəyirəm.

Və Əliyə də, onun züyünü tutanlara da bir tövsiyəm var: Ya bu vay-şivəndənsə yığışıb adamlarınızı, əgər varsa, salın şəhərlərin, kəndlərin məhlələrinə, bəlkə yalvarıb-yaxarıb altı milyon seçici içindən qırx beş min imzanı birtəhər toplaya bildiniz və "namizəd" olub həm xaricdəki dostlarınıza hələ də siyasi qüvvə kimi varlığınızı göstərə bildiniz, həm də cəmiyyətə xaricdəki həmin ağalarınızdan aldığınız sifarişlər əsasında boğazdan yuxarı qışqır-bağır eliyə bildiniz. Yoxsa bu şansı da əldən versəniz, vay sizin halınıza...

*Təhmasib Novruzov*

## CityNet-in əsas tərəfdaşlığı ilə GameSummit festivalı keçiriləcək




CityNet internet provayderi Azərbaycanda növbəti dəfə baş tutacaq kütləvi oyun festivalı olan GameSummit-in əsas tərəfdaşıdır. Dekabrın 9-da"Flame Towers, Fairmont Baku Hotel"dəkeçiriləcək GameSummit bu dəfə də ölkənin bütün oyun həvəskarları, kospleyerləri eləcə də gik mədəniyyəti və komiks sevən insanlarını bir araya toplayacaq.GameSummit Baku Winter Edition adı altında keçiriləcək bu festival həm onlayn, həm də oflayn formatda ən müxtəlif əyləncələr vasitəsilə oyun həvəsindən zövq almaq üçün möhtəşəm bir platforma olacaq.

Festival zamanı maraqlı və fərqli simulyatorlar da daxil olmaqla, müxtəlif oyunlar üzrə turnirlər və çempionatlar keçiriləcək. Festival çərçivəsində CityNet adlı xüsusi arenada Azərbaycanın ən güclü kiberidman komandalarının iştirakı ilə keçiriləcək 'Fortnite', 'Valorant', 'CS2', 'Dota2', 'League of Legends' kimi oyunların çempionatlarının şou oyunları və final mərhələləri baş tutacaq. Həmçinin, keçmişin məşhur klassik hit oyunlarının atmosferini yenidən yaşadacaq retro və stolüstü oyun çempionatları da təşkil olunacaq. GameSummit festivalında ənənəvi olaraq bu dəfə də hər kəsin son virtual əyləncədən həzz ala biləcəyi, tamaşaçını ekran arxasındakı xəyali dünyaya aparan VR zonası ziyarətçilər üçün açıq olacaq.

CityNet-in əsas tərəfdaşlığı ilə ölkəmizdə artıq ikinci dəfədir ki, keçiriləcək bu kütləvi tədbir hər bir iştirakçının maraqlı oyun dünyasına düşə biləcəyi, emosiyalar və unudulmaz sərgüzəştlər yaşaya biləcəyi bir festivala çevrilməyi hədəfləyib. Qeyd edək ki, CityNet bundan öncə iyun ayında bu festivalı əsas tərəfdaş qismində dəstəkləmişdi.

CityNet yüksək sürətli sabit internet, ev telefonu xətti və rəqəmsal TV (40 HD kanal olmaqla, 240-dan çox TV kanal) xidmətləri təqdim edən və daim inkişaf edən internet provayderidir. Daha ətraflı məlumatı www.citynet.az rəsmi internet saytına keçid edərək və ya *1177 ilə əlaqə saxlayaraq əldə etmək mümkündür.

ANALİTİK + AKTUAL

# Növbədənkənar prezident seçkiləri nə vəd edir?

*Azərbaycan dövləti və xalqı yeni siyasi iradə kandarındadır*

**Faktlar göstərir: nə əvvəl, nə də indi ölkədə elə bir siyasi fiqur yoxdur ki, seçkilər zamanı Prezident İlham Əliyevlə rəqabətə girsin. Prezident eyni zamanda Müzəffər Ali Baş Komandan olaraq torpaqlarımızı 30 illik işğaldan azad etdi, Azərbaycanı 200 ildən sonra qalib ölkəyə çevirdi. Bəli, ola bilər ki, fevralın 7-nə təyin edilən növbədənkənar prezident seçkilərində bir neçə namizədliklər irəli sürülsün. Amma onların bu seçkilərdə qələbə qazanmaq şanslarının sıfıra bərabər olacağını bəri başdan proqnozlaşdırmaq olar.**

### Prezident İlham Əliyev fərqli siyasi iradəli addım atdı, yaxud qərar qəbul etdi

Yeri gəlmişkən, müxtəlif siyasi kuluarlarda söhbətlər gəzirdi ki, Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək. Lakin Prezident İlham Əliyev fərqli siyasi iradəli addım atdı, yaxud qərar qəbul etdi - növbədənkənar prezident seçkilərinin keçiriləcəyi ilə bağlı fərman imzaladı.



Yeri gəlmişkən, yeni prezident seçkilərinin gözlənilməz və ani şəkildə elan edilməsi 2020-ci ildəki fevral seçkilərini xatırladı. Belə ki, ölkə başçısı 2019-cu ilin dekabrında da gözlənilmədən növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı qərar qəbul etmişdi. Daha dəqiq desək, gözlənilən seçki tarixindən 9 ay əvvəl...

Seçkilər Şuşa və Xankəndi də daxil olmaqla azad edilmiş bütün ərazilərimizdə keçiriləcək!

Söz yox ki, növbədənkənar prezident seçkiləri həm də ölkəmiz üçün bir ilkə də imza atacaq - seçkilər Şuşa və Xankəndi də daxil olmaqla azad edilmiş bütün ərazilərimizdə keçiriləcək. Həmçinin, bu seçkilərin regional proseslərlə də bağlı olduğunu ehtimal etmək olar. Daha bir fakt budur ki, bir sıra aparıcı analitiklərin fikrincə, qarşıdakı illərdə nəinki regionda, eləcə də bütün dünyada köklü dəyişikliklərin baş verəcəyini istisna etmirlər.

### Daha böyük uğurların və qələbələrin müjdəsi

Digər tərəfdən isə belə bir analizə istinad etmək olar ki, dövlətimizin başçısı 2025-ci ildə iki mühüm və kifayət qədər məsuliyyət tələb edən tədbirin - prezident və parlament seçkilərinin keçirilməsi gərginliyini azaltmaq üçün gələn ilin fevralında növbədənkənar prezident seçkiləri ilə bağlı qərarını verib.

Beləliklə, Azərbaycan dövləti və xalqı yeni siyasi iradə kandarındadır. Bu kandar isə daha böyük uğurların və qələbələrin müjdəsi kimi də qiymətləndirilə bilər.

***Afət Tahirqızı***

# Səhiyyə Nazirliyi vətəndaşlar üçün nə planlayır?

**Artıq kağız reseptlərə əlvida deyəcəyik. Dərmanlar elektron reseptlərlə təyin olunacaq, elə apteklərdən də məhz elektron reseptlə alınacaq. Elektron resept kağız reseptin rəqəmsal versiyasıdır. Üstünlüyü isə budur ki, vətəndaşın hansı xəstəliyə qarşı hansı müalicə aldığı, hansı dərman preparatlarından istifadə etdiyi bilinəcək. Sistemin tətbiqi reseptlərin səhv şərhini aradan qaldıracaq, həkimlərin məsuliyyətini daha da artıracaq ki, bu da bir çox neqativ halların qarşısını almış olacaq. Məsələn, dövlət qeydiyyatında olmayan dərmanlar bu vasitə ilə artıq yazıla bilməyəcək. Sistemin bütün ölkə ərazisində tətbiq olunması yanvar ayının 1-dən nəzərdə tutulur. SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib.**







SN-in şöbə müdiri Kəbutər Mövsümlü: "Reseptlərin əldə olunması qaydalarına gəldikdə isə vətəndaşlar tibb müəssisəsinə müraciət etdikləri zaman onların FİN koduna əsasən həkim tərəfindən elektron resept tərtib olunaraq mərkəzi uçot sistemi bazasına ötürüləcək. Daha sonra vətəndaşlar öz şəxsi kabinetlərində onlara göndərilmiş elektron reseptin nömrəsinə görə PR kod vasitəsilə və ya şəxsiyyət vəsiqəsinin FİN nömrəsini əczaçılıq müəssisəsinə təqdim edərək tələb olunan dərman preparatlarını əldə edə biləcəklər. Eyni zamanda, aptekdə satışı həyata keçirən məsul şəxs də sistemə daxil olaraq vətəndaşa tərtib olunmuş elektron resepti görə biləcək və həmin reseptdə yazılmış dərmanlarla vətəndaşı təmin edə biləcək". Prosesin effektivliyini təmin etmək üçün xəstəxanaların informasiya texnologiyaları sistemi təbii ki, təkmilləşdirilməlidir. Bəs Azərbaycanın səhiyyə sistemi, xəstəxanalarımız elektron reseptlərə keçməyə hazırdırmı?



Tibb elmləri doktoru, professor Adil Qeybulla: "Şəffaflığı yaratmaq üçün lazım olan sistem, ya da donor haqqında qanun fəaliyyətə başlasa da, yəni, bu, sistem olmasa mümkün deyil. Bu baxımdan, səhiyyəni sistemə çevirmək lazımdır. Bunun üçün də vahid bir proqram olmalıdır. Bu proqram Azərbaycan səhiyyəsinin, ölkə ərazisinin sərhədlərindən içəridə, hər yerində olan prosesləri həmin sistemdə izləmək imkanı verməlidir. Hələlik, bu yoxdur. Adi bir randevu sistemini yaratmaq hələ mümkün olmayıb. Yəni biz elektron sistemi yaratmalıyıq. Elektron reseptlər də çox vacibdir. Ona görə ki, klinik protokollara uyğun dərmanların təyin edilməsi məsələsi çox vacibdir. Biz bilirik ki, bu gün bundan sui-istifadə halları da var. Bəzən dərmanların xəstələrə həddindən çox yazılması, lazım olmayan dərmanların yazılması, ayrı-ayrı həkimlərin "bu mənim üsulumdur" deyərək istifadə etməsi hallarına rast gəlirik. Bunlar yolverilməzdir. Klinik protokollar ortada olmalıdır. Bütün fəaliyyət buna uyğun həyata keçirilməlidir. Əks halda kağız üzərində qala bilər". Dünyanın hər yerində xəstəliklərin dinamikası elektron reyestrdə qeydə alınır və izlənilir. Bu gün ölkəmizdə hansı xəstəlikdən nə qədər xəstənin əziyyət çəkdiyini dəqiq bilmək üçün də sistemin tez bir zamanda effektiv işə düşməsi daha məqsədəuyğundur.

***Söylü Ağazadə***

# "Uğurlu bünövrə möhtəşəm qələbələr bəxş etdi"

*MÜNASİBƏT*

**"Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqımızın dəstəyi ilə Azərbaycan Pespublikasının Prezidenti seçildikdən sonra bir sıra olduqca prinsipal gələcəyimizi təyin edəcək addımlar atdı". Bunu SİA-ya açıqlamasında millət vəkili Elşad Mirbəşiroğlu deyib.**

Onun sözlərinə görə, hər şeydən öncə daxili siyasi sabitliyi təmin etmək bir tarixi zərurət idi. Belə ki həmin ərəfədə Azərbaycan müxtəlif silahlı qruplaşmalar mövcud idi ki, onlar hakimiyyət uğurunda qeyri-sivil mübarizə aparırdılar: "Bu da təbii ki, ölkənin həm siyasi, həm də iqtisadi baxımdan gələcəyini sual qarşısında qoyurdu. Ulu Öndər Heydər Əliyev olduqca gərgin tarixi bir şəraitdə siyasi sabitliyi təmin etməklə sosial iqtisadi islahatların həyata keçirilməsi üçün zəmin yaratmış oldu. Əks halda milli iqtisadi sistemi qurmaq və bu əsasda sosial xarakterli addımları qeyri-mümkün olardı. Ölkədə daxili siyasi sabitlik təmin edildikdən sonra milli iqtisadi sistemin qurulması istiqamətində addımlar atıldı, bu mənada ən təsirli addımlardan biri 1994-cü il sentyabr ayının 20-də "Əsrin müqaviləsi"nin imzalanmasından ibarət oldu. Çünki iqtisadi resurslar olmadan sosial yönümlü siyasətin həyata keçirilməsi qeyri-mümkün olardı. Artıq milli iqtisadi sistemin ilkin elementlərinin formalaşmasından dərhal sonra Azərbaycan dövlətinin sosial xarakteri formalaşdırmağa başladı. Azərbaycanda sosial dövlət ideyasının ən birinci dəstəkləyicisi və bu ideyanı həyata keçirən Ulu Öndər Heydər Əliyev oldu. Məhz xalqının rifahını düşünən və hər bir Azərbaycan vətəndaşının sosial iqtisadi rifahını öz siyasətinin mərkəzində qoyan Dahi Öndər Heydər Əliyev sosial dövlət ideyasına söykənərək elə sosial siyasəti də həyata keçirməyə başladı. Sosial dövlət ideyasının başlıca prinsipi ondan ibarətdir ki resursların birgə yaradılması ilə yanaşı bu resursların ədalətli bərabər bölgüsündə həyata keçirir və hər bir milli resurslardan hər bir cəmiyyət üzvü faydalanmış olur. Bu həm cəmiyyətdə ədalət prinsipinin bərpa olunması həm də, bütövlükdə ölkənin sosial dövlət xarakterinin gücləndirilməsini şərtlandirirdi. Ona görə də, məhz 1994-1995-ci illərdən başlayaraq Ulu Öndər Heydər Əliyev tərəfindən hər tərəfli sosial xarakterli addımlar atılmağa başladı. Məhz vaxtı ilə uğurlu bünövrə bu gün də sosial xarakterli addımların davamlı xarakter almasını təmin etməkdədir".



***Gülyana***

# Azərbaycandan dünyaya sülh mesajları



Dünyanın müxtəlif dövətlərinin marağının Azərbaycana artması ölkəmizin siyasi gücünə, iqtisadi inkişafına, sülhsevər dövlət olmasına əsaslanır. Müstəqillik tariximizdə ölkəmizin etibarlı tərəfdaş olması, təhlükəsizliyə, sabitliyə verdiyi töhfələrin məntiqi nəticəsidir ki, Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilərək BMT, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumların üzvüdür. Müasir dünyada Azərbaycan artıq ən qlobal mahiyyət kəsb edən və dünyanın marağında olan mövzuların müzakirə olunduğu bir məkana çevrilib. 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfərdən sonra keçirilən beynəlxalq tədbirlərdə işğaldan azad olunan ərazilərimizin dirçəldilməsi və beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm komponentinə çevrilməsi istiqamətində görülən işlərin təbliğinə geniş yer verilir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən dərhal sonra dövlətimizin başçısının Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi istiqamətində həyata keçirdiyi ardıcıl və mütərəqqi siyasət beynəlxalq ictimaiyyətin də diqqətindədir. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib. Şərqi Zəngəzurda və Qarabağda görülən işlər Azərbaycanın azad olunmuş ərazilərində yenidənqurma işlərinin necə sürətlə aparıldığının göstəricisidir.

Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti sayəsində bu gün Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Bu Qələbə Qarabağın 30 illik işğalına son qoydu. Bu gün artıq işğaldan azad olunan ərzilərimiz abadlıq-quruculuq meydanına çevrilib. İnfrastruktur layihələrlə yanaşı keçmiş məcburi köçkünlərin əzəli torpaqlara qayıdışı və məskunlaşması qarşıda duran vəzifələrdəndir. Artıq köç karvanları həmin ərazilərə yol alıb, yüzlərlə sakin öz torpağına qədəm basıbayaq açıb.

## "BÖYÜK DƏRƏCƏDƏ DƏYİŞİKLİKLƏRİN TƏŞƏBBÜSKARI AZƏRBAYCANDIR"

Vətən müharibəsindən sonra regionda yeni reallıqlar yaradılıb. ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bildirdiyi kimi, regionda vəziyyət dəyişir və böyük dərəcədə dəyişikliklərin təşəbbüskarı Azərbaycandır: "Bu təbiidir, çünki biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin üzərində suverenliyini tam bərpa etməli idik. Biz bunu sülh yolu ilə etmək istəyirdik, eyni şəkildə biz təqribən 30 il ərzində Ermənistan ilə münaqişəni dinc yolla həll etmək istəyirdik. Lakin təəssüflər olsun ki, bu mümkün olmadı. Bunun bir çox səbəbi var idi və biz onları ötən görüşlərimizdə ətraflı şəkildə müzakirə etmişik."Beynəlxalq hüququn normalarında əksini tapan prinsipləri rəhbər tutmaqla Azərbaycan bütün dünya dövlətləri ilə mehribanlıq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu istiqamətdə fəaliyyət göstərir. Hətta qalib tərəf olmasına baxmayaraq, Azərbaycan Vətən müharibəsindən sonra Ermənistanla yekun sülh müqaviləsinin bağlanması, regionda xalqların birgəyaşayış formulunun tapılması istiqamətində təşəbbüslərə liderlik edir.

Xatırladaq ki, üç il əvvəl noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bununla da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulub. Bəyanata əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonları sülh yolu ilə Azərbaycana qaytarılıb. Ancaq Ermənistan imzaladığı sənəddəki üzərinə götürdüyü öhdəliklərə əməl etmirdi. Belə ki, 10 noyabr 2020-ci ildəki üçtərəfli bəyanatda Ermənistanın Rusiya sülhməramlılarının yerləşməsinə paralel olaraq Qarabağdan öz qüvvələrini çıxarması tələbi açıq şəkildə göstərilib. Lakin Ermənistan təxminən Azərbaycanın suveren ərazisindəki qanunsuz hərbi birləşmələrə dəstəyini davam etdirib. Hələ bu azmış kimi Azərbaycanın Qarabağ bölgəsindəki qanunsuz Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulur, ərazilərimiz minalanır, müxtəlif təxribatlar törədilirdi.

## "BİR GÜNDƏN DƏ AZ SÜRƏN ANTİTERROR TƏDBİRLƏRİ BİZƏ İMKAN VERDİ Kİ, SUVERENLİYİMİZİ BƏRPA EDƏK"

Məlumdur ki, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan Ordusu bu il sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Düşmən ağ bayraq qaldıraraq təslim oldu. Bununla da Azərbaycanın bütün ərazilərində Konstitusiya quruluşu bərpa edilib". Beləliklə, bir gündən də az sürən antiterror tədbirləri bizə imkan verdi ki, suverenliyimizi bərpa edək. Yeri gəlmişkən, əməliyyat elə tərzdə aparılmışdır ki, mülki infrastruktura zərər dəyməyib və dinc əhali arasında itkilər olmayıb. Əməliyyat başlayan anda bəyan etdik ki, Ermənistan ordusu silahları yerə qoyan kimi biz dayanacağıq və onlara oraları tərk etməyə icazə verəcəyik. Əməliyyat 24 saatdan az sürdü və onlar təslim olduqlarını bəyan edəndən sonra bütün fəaliyyətlər dayandırıldı" - deyə Prezident çıxışında diqqətə çatdırıb.

## "SÜLHLƏ BAĞLI ONU DEYƏ BİLƏRƏM Kİ, DÜŞÜNÜRƏM, BİZ SÜLH GƏTİRMİŞİK"

Tədbirdə Cənab Prezidentə ünvanlanan "Tarix sizi 2020-ci il Qarabağ müharibəsində qalib gəlmiş Lider kimi xatırlayacaq. Həmin Qələbə bir çox cəhətdən Sizin prezidentliyinizin dəst-xəttini müəyyənləşdirdi. Bununla belə, görəsən, Siz həm də ölkənizə və Cənubi Qafqaz regionuna sülh gətirən Lider kimi xatırlanmaq istərdinizmi? Siz bu istiqamətdə hansı addımları atırsınız? Siz dəfələrlə Ermənistanla sülh müqaviləsinin bağlanmasının vacibliyindən danışmısınız. Ancaq artıq bir neçə ildir ki, bu məqsədə çatmaq mümkün deyil. Hesab edirsinizmi ki, bu sülh müqaviləsinin imzalanmasının ləngiməsində risklər var? Maneə yaratmaq istəyənlər fürsətdən istifadə edərək Ermənistan və Azərbaycanın faktiki razılığa gəlməsinin qarşısını almağa çalışacaqlarmı?" sualına ətraflı cavab verən dövlət başçımız müsahibələrinin birində vurğuladığı fikri diqqətə çəkərək bildirmişdir ki, əraziləri azad etmək mənim siyasi həyatımın əsas məqsədini təşkil edir və fəxr edirəm ki, bu məqsədlərə nail olunub: "Necə xatırlanacağım bir çox amillərdən asılı olacaq. Düzünü desəm, bu barədə düşünməyə belə vaxtım yoxdur. Bu barədə düşünsəm də, buna təsir etmək mənim iradəmdən asılı deyil. Sülhlə bağlı onu deyə bilərəm ki, düşünürəm, biz sülh gətirmişik.Biz sülhü müharibə ilə gətirdik. Düşünürəm ki, bu, Qafqazda lokal vəziyyətdən daha geniş şəkildə qiymətləndirilməli olan bir məsələdir. Hərbi yolla sülhə necə nail olmaq olar? Uzun illər danışıqlar və işğal zamanı mən Minsk qrupunun həmsədrlərindən eşidirdim, onlardan üçü bir ağızdan qeyd edirdilər ki, münaqişənin hərbi yolla həlli yoxdur. Belə məlum oldu ki, onların hər üçü səhv edirdi. Dövlətçilik tarixinə, geniş beynəlxalq təcrübəyə, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasına baxmayaraq, onlar yanılırdılar. Düşünürəm ki, ya sadəcə, yanlış qiymətləndirdiklərinə görə yanılırdılar, ya da bu, Azərbaycana bir növ mesaj idi ki, siz sülh ssenarisindən başqa ssenariyə əl atsanız, uğur qazana bilməyəcəksiniz. Biz sübut etdik ki, münaqişənin hərbi yolla həlli var. Beləliklə, münaqişə həll olundu".

Dövlətimizin başçısı bildirib ki, sülh sazişi imzalamalıyıq. Bu, ədalətli sülh olmalıdır - hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınmasına əsaslanan sülh. Belə sülh sabitliyə, inkişafa və əməkdaşlığa nail olmağın yeganə yoludur. "İki ölkə arasında daha müharibə olmayacağına, Ermənistanın vəziyyətlə tam razılaşdığına və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı dediklərini həqiqətən nəzərdə tutduğuna dair zəmanətimiz olmalıdır. Onlar keçmiş "dağlıq qarabağ respublikası"nı unutmalı, sərhədin delimitasiyası məsələsində konstruktiv olmalıdırlar. Əsl sülh məhz budur" - deyə Cənab Prezident qeyd edib: "İmzalanacaq sənəd şübhəsiz ki, əhəmiyyət kəsb edir, amma bizim üçün xüsusilə də 30 ildir ermənilərin torpaqlarımızın bir santimetrini belə azad etmək istəməməsindən sonra vacibdir. 2019-cu ildə Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" deyəndə prezident olan əvvəlki Qarabağ klanının liderləri yox, Paşinyanın özü nə demək istəyirdi? Heç kim ona bu sualı vermirdi. Onun müdafiə naziri 2019-cu ildə də Azərbaycanı işğalla hədələyən "yeni ərazilər uğrunda yeni müharibə olacaq" deyəndə bu, Koçaryan-Sarkisyan qruplaşması deyildi. Bu, Paşinyan idi, o idi. İndi o, "Qarabağ Azərbaycandır"- deyir".

Azərbaycan sülhsevər siyasətini bir daha mesaj olaraq dünya ictimiyyətinə çatdırmış oldu. Azərbaycan mövqeyi dəyişməzdir və bütün bu fikirlər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məhārəti, diplomatik siyasətinin reallıqlarıdır.

***ZÜMRÜD BAYRAMOVA***

# "Dünya 2 cəbhəyə bölünür- Ermənistan keçmişə, Azərbaycan gələcəyə gedir"

"Ermənistana və Moldovaya bir az pul "qoya" bilərsən və onlar nə lazımdırsa edəcəklər. Bu hiylə Azərbaycanla işləməyəcək"





Tanınmış rusiyalı politoloq Aleksandr Razuvayev "Moskva-Baku" portalına müsahibəsində Bakının Vaşinqtonu Cənubi Qafqazda öz yerinə necə qoyması barədə.

***- Aleksandr Yuryeviç, Azərbaycan prezidenti bir neçə gün əvvəl ekspertlərlə görüşdə ABŞ haqqında kifayət qədər sərt danışdı. Xüsusilə, o, mahiyyətcə Vaşinqtonun özünün Bakı ilə münasibətləri korlamağa cəhd etdiyini açıq şəkildə ifadə etdi və etiraf etdi ki, bu baxımdan Ermənistanla sülh danışıqları platformaları arasında yalnız Moskva və Aİ qala bilər. Bundan əlavə, prezident ABŞ-ı Azərbaycanın İranla münasibətlərinə qarışmamağa çağırıb...***

- Təbii ki, bu vəziyyətdə ABŞ-da erməni lobbiçiliyinə laqeyd yanaşmaq olmaz, amma amerikalılar tamamilə istənilən ölkə ilə özlərini onların vassalı kimi aparmağa çalışırlar. Əgər bu yanaşma nəticə verməzsə, biz indi Bakı və Vaşinqtonun timsalında gördüyümüz kimi, hansısa xarici siyasət toqquşmalarını görürük. Və daha bir məqam var. Amerika Qərbin bir hissəsidir. Qərbdə isə həm müsəlman, həm də türk dünyasına qarşı həmişə soyuqqanlı, mənfi münasibətdə olub. Buna görə də, bütün mövcud tendensiyalar təəccüblü deyil. Dünyada həqiqətən suveren ölkələr çox deyil. Azərbaycan da bu ölkələrdən biridir.

Gördüyümüz kimi, bu günə qədər Azərbaycan ABŞ-ı bu qədər açıq şəkildə tənqid etməyib.

Amerika Transqafqaz "tarixi"nə ciddi şəkildə qarışmağa cəhd etməkdə davam edir. Bəs görəsən Amerika hara, Qafqaz regionu hara? Azərbaycan Qarabağı tamamilə öz nəzarətinə qaytardıqdan sonra Bakı özünü daha inamlı hiss edir. Bundan əlavə, enerji qiymətləri rahatdır.

Və daha bir şey: Azərbaycan Ermənistandan fərqlidir. Əgər Ermənistandan siyasi məqsədlər üçün istifadə oluna bilinirsə və hətta özü ABŞ tərəfindən istifadə olunmaq istəyirsə, Azərbaycandan bu cür istifadə etmək mümkün olmayacaq.

Azərbaycan Ermənistandan fərqli olaraq suveren ölkədir. Azərbaycan öz pulu ilə yaşayır və inkişaf edir. Məsələn, Ermənistana və Moldovaya bir az pul "qoya" bilərsən və onlar nə lazımdırsa edəcəklər. Bu hiylə Azərbaycanla işləməyəcək. Əgər iqtisadiyyat yaxşı vəziyyətdədirsə, ölkə suverendirsə, təzyiq göstərmək çox çətindir. Ermənistana onu yedizdirəcək, onun uğrunda mübarizə aparacaq "ağa" lazımdır.

***- İlham Əliyevin ABŞ-a ünvanladığı tənqidi bəyanatlar fonunda əvvəllər Azərbaycana qarşı sərt danışan və guya vəziyyəti düzəltmək üçün dövlət katibinin köməkçisi O`Brayen Bakıya gəldi... Blinkenin köməkçisi danışıqlarda konstruktiv nəticələri qeyd etdi. Münasibətlər hamarlanıbmı?***

- Xeyr, düzəlməyib. O'Brien-in Bakıya səfəri "ağ sapla tikilib", hər şey göz qabağındadır. ABŞ oyun oynayır. ABŞ dövlət katibinin Əliyevi O`Brayenin Azərbaycana qarşı sərt anti-Azərbaycan bəyanatları ilə bağlı yaranmış qalmaqalı həll etməyə necə çağırdığını gördük. Amma bir faktı da nəzərdən qaçıra bilmərik ki, Blinken Əliyevə zənglə paralel olaraq, Vaşinqtonun Ermənistanın ərazi bütövlüyünə hörmətlə yanaşdığına bir daha əmin olduğunu dediyi baş nazir Paşinyana da zəng edib. Nə üçün?! Bakıdan səmimi şəkildə üzr istəmək istəyirsənsə, niyə bu "paralel" İrəvana çağırışlar olur... Bu, aşkar qeyri-səmimilikdən daha çox şey deməkdir. Qaz, neft... ABŞ üçün hegemonluq daha vacibdir. "Tərəfdaşlarla" qalan hər şey manipulyasiyadır...

Üstəlik, Blinkenin Əliyevə "üzrxahlıq" çağırışı ilə paralel olaraq, O'Brayen də eyni zamanda yenidən Azərbaycan əleyhinə bəyanatlar verib. Tərəfdaş ölkəni bərabər hüquqlu hesab edirsə bunu edərdimi? Qətiyyən yox.

ABŞ-ın Bakıya təzyiqləri davam edəcək, gələn ilin fevralında Azərbaycanda prezident seçkiləri keçiriləcək. İstisna etmirəm ki, ABŞ ölkədəki vəziyyəti sarsıtmaq üçün bu məsələdə fəallaşmağa çalışacaq. Amma uğur qazana bilməyəcəklər.

Təbii ki, fikrimcə, Amerika baş katibinin köməkçisi Azərbaycan dövlətinin başçısından heç bir üzr istəmədi. Türkiyə prezidenti bir dəfə ABŞ mövzusunda danışıb, ABŞ nümayəndələrinin özlərini çox kobud apardığını deyib. Ona görə də Bakıda birmənalı olaraq üzrxahlıqlar yox idi.

Amma buna qarşı çıxmaq üçün deyə bilərəm ki, bu gün qlobal geosiyasi parçalanmaları gördükcə amerikalılara "yox" deyən dövlətlərin sayı artır. Və bu tendensiyalar yalnız dünyanın qlobal geosiyasi dönüş nöqtəsində artacaq. Dünya 2 cəbhəyə- Qərbə və digərlərinə bölünür. Ancaq bu o demək deyil ki, hamı bir-birini "sevir". Amma bu və ya digər şəkildə bu günün reallığı Qərb və onun hegemonluğunu qəbul etməyənlərdir.

Əgər dünya Qərbə və Şərqə bölünürsə, deməli, burada, gördüyümüz kimi, Ermənistan şüurlu şəkildə Qərbin yanında qalır, yəni əsas cərəyandan- Şərqdən imtina edir. Belə görünür ki, Qərb vektoru gedəndir. Şərqin vektoru isə gələcəkdir. Bu o deməkdir ki, Ermənistan geriyə çəkilir.

Bu unikal haldır. Şüurlu intihardır.

***Tərcümə - Elçin Bayramlı***



## FELYETON

# Dodaq sürücü

**Əvvəllər maşınları yalnız kişilər sürərdi. Sonralar maşınları kişilərlə yanaşı, qadınlar da sürməyə başladı. Biz uşaq olarkən qadın sürücü görəndə lap dəhşətə gəlirdik ki, qadın da maşın sürər. Sonralar isə qadın sürücülər çoxaldı və bu məsələ də adiləşdi.**

İndi maşınları həm qadınlar, həm də kişilər sürür. Biz də alışmışıq yanımızdan ötən avtomobilin içərisində ya qadın, ya da kişi görməyə. Heç kim də maşının içərisində qadından, kişidən başqa sürücü görməyi təsəvvür edə bilməz. Deyərsiniz ki, niyə, bəzən sükan arxasında uşaq-muşaq da görmək olur. Olar, olar. Onlar ata balalarıdır, hərdən ataları onlara maşını verib "bir şəhəri hərlən",- deyir. Birdən də elə olur ki, onlar şəhəri hərləndikcə, hadisələr də bir-birinin ardınca baş verir. Lakin bu ata balalarında məgər "günah" var?..

Söhbət nə maşın sürən qadınlardan, nə kişilərdən, nə də ata balalarından gedir. Söhbət bu gün tez-tez rastlaşdığımız yeni sürücülərdən gedir. Bu sürücülərlə rastlaşan olubsa, nə dediyimi anlayar. Rastlaşmayanlar da bundan sonra bir az gözüaçıq olsunlar, ətraflarına yaxşı baxsınlar, onlar da görəcəklər. Bu, elə bir gizli məsələ deyil.

Deməli, şəhərdə yeni sürücülər peyda olub: dodaq sürücülər. Bir də baxırsan yanından maşın ötür, istər-istəməz nəzər salırsan, içəridə dodaqdan savayı heç nə görmürsən. Dodaq sürücüləri işıqforlarda daha yaxşı müşahidə etmək olur. Maşınlar dayanır ki, sakinlər keçsinlər, bu an ətrafa bir nəzər salsan, hökmən dodaq sürücülərdən birini görməmiş olmazsan. Allah eləməsin ki, bu dodaq sürücülərlə siz də mənim kimi axşamçağı rastlaşasınız. Və mənim kimi duvalıq olasınız.

Yaxşı ki, xəbərdar etdim sizi. Yoxsa dodaq sürücüləri görərkən vahimələnməməyiniz mümkün deyil. Birinci dəfə mən dodaq sürücünü görəndə 3-5 gün özümə gələ bilməmişdim. Sonra alışdım. Necə ki, bir vaxtlar maşınları ancaq kişilər sürərdi, biz də qadınları sürücü kimi görəndə devikərdik. Bu dəfə də qadın yox, kişi yox, dodaq görəndə devikdim, sonra isə tez alışdım.

Birinci dəfə necə olmuşdu görməyim, nağıl edim, siz də bilin. Banka gedirdim. Bank binasının yanında maşın dayanmışdı. Mən də yolu keçərkən həmin maşının yanından ötməli idim. Elə həmin an da maşına tərəf baxmışdım və "bismillahir-rəhmanir-rəhim",- deyib qulağıma gələn ürək döyüntülərimlə birlikdə addımlamağa davam etmişdim. Banka necə getdim, necə gəldim, xatırlamıram. Çünki gördüyüm mənzərənin təsirindən qəti çıxa bilmirdim.

Vallah, deyəcəksiniz ki, axı bu dodaq sürücü kimdir, nədir, səhərdən uzun-uzadı danışıb mətləbə gələ bilmirsən. Deyim, siz də bilin ki, görəndə qan-bağır olmayasınız. Kim olacaq, əslində bu sürücü qadın idi. Lakin alt dodağı yeri, üst dodağı göyü süpürürdü. Bilmirəm, dodaqları dərd tapmışdı, arı vurmuşdu, yoxsa yıxılıb əzmişdi onları, nə idisə, dodaqlar o qədər şişmişdi ki, inanın, maşının içərisində dodaqdan başqa heç nə görünmürdü.

Sonra bu məsələni bir-iki yerdə danışdım. Dedilər, ay yazıq, yıxılmaq nədir, arı vurmaq nədir, dərd tapmaq nədir, slikon vurdurub dodaqları göyə qaldırıb, yerə endirmək dəbdir ey...

Mən də dedim, olsun da, dəb olsun, amma bu qədər?.. Vallah yəqin siz mən gördüyümü görməmisiniz, görsəniz, inanın ki, siz də sürücünün dodaq olduğunu zənn edərsiniz.

***Mətanət Məmmədova***

# Qadın razı deyilsə, kişi boşana bilməz?

*AYDINLIQ GƏTİRİLDİ*



"Boşanma zamanı uşaq varsa və ya ər (arvad) nikahın pozulmasına razı deyilsə və yaxud tərəflərdən biri Qeydiyyat Şöbəsində nikahın pozulmasından yayınırsa, məhkəmə qaydasında həyata keçirilir və nikah məhkəmə tərəfindən pozulur". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. Onun sözlərinə görə, boşanma zamanı ər və arvad arasında bağlanan nikahın məhkəmə qaydasında pozulması prosesidir: "Boşanma prosesi həm ər, həm də arvad tərəfindən məhkəməyə boşanma ərizəsi verildikdə başlayır.

Qanunvericiliyə edilmiş yeni dəyişikliyə əsasən, nikahın pozulmasını istəyən şəxs məhkəməyə boşanma ərizəsi verməzdən əvvəl ərizə ilə Mediasiya təşkilatına müraciət etməlidir". Fariz Əkbərov sözlərinə belə davam edib: "Mediasiya Şurası tərəfindən təyin edilmiş mediator tərəfləri barışdıra bilmədiyi təqdirdə isə tərəf məhkəməyə müraciət etməlidir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 2-ci maddəsinə əsasən Ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir.

Nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır. 2.4. Nikaha daxil olarkən və ailə münasibətlərində sosial, irqi, milli, dini və dil mənsubiyyətinə görə vətəndaşların hüquqlarının hər hansı formada məhdudlaşdırılması qadağandır. Həmin Ailə Məcəlləsinin 15-ci maddəsinə əsasən, Ərin nikahın pozulmasını tələb etmək hüququnun məhdudlaşdırılması Arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz".

***Ayşən Vəli***

# Əzizim, qurud aşı, bu iş sevməz heç naşı...

Baxmayaraq ki, ölkəmizin bir çox bölgələrində qurud yeməyi bişirilir, lakin etiraf edək ki, milli mətbəximizin bu nümunəsi haqqında çoxlarımızın məlumatı yoxdur. Elə mənim də qurudla ilk tanışlığım 4-5 il əvvəl olmuşdu. Müsahiblərimdən birinin söhbət zamanı "Qurud haqqında nə bilirsən?", - sualına cavabım belə olmuşdu: - Qurud haqqında çox eşitmişəm, ancaq nə görmüşəm, nə də yemişəm. Etiraf edim ki, milli mətbəximizin nəfis təamı haqqında yetərincə məlumatlı olmadığım üçün çox utandım. Lakin bir an onu da düşündüm ki, bilməmək eyib deyil, bilmədiyini öyrənməmək eyibdir. Bu qənaətlə də qurud haqqında soraqlaşmağa başladım. Soraqlaşmaq deyəndə ki, qurud bu gün də kəndlərimizin əksər evlərində yaydan qışa tədarük edilən nemətlərin ən vaciblərindən hesab olunur. Lakin soraqlaşmaqda məqsədim elə bir müsahib tapmaq idi ki, qurud haqqında ondan müfəssəl məlumat ala bilim.

Beləliklə, soraqladığım adamı tapdım, üz tutdum Şahbuz rayonunun Kükü kəndinə. Burada Səfərovlar ailəsinin birgünlük qonağı oldum. Ailənin ağbirçəyi 89 yaşlı Anaxanım nənənin qurudla bağlı söylədiklərini dinlədim, gəlini Asya xanımla birlikdə mətbəxdə qurud kələcəsi bişirib süfrəyə gətirdik.

Anaxanım nənə deyirdi: - Qurud qışa hazırlanan nemətlərin içərisində ən dadlısı, faydalısı olduğu kimi, həm də ən çətinidir. Çətindir, nəyə görə? Çünki onun hazırlanmasında səliqə, təmizkarlıq o qədər vacibdir ki... Elə buna görə el arasında deyirlər də, hər qadının hazırladığı qurud yeyilməz. Gərək qab-qacağın, əllərin, qurudu sərdiyin, qurutduğun yer gül kimi ola. Qurud yeganə yemək növüdür ki, onu yayda hazırlayanda da, qışda bişirəndə də əllər onunla dəqiqələrlə təmasda olur. Mən həmişə qıza-gəlinə tövsiyə edib deyərəm:

Əzizim qurud aşı,  
Dur bişir qurud aşı.  
Bilirsənsə, yaxın gəl,  
Bu iş sevməz heç naşı.

Sonra Anaxanım nənə qurudun, həm də əsl qurudun necə hazırlanmasından danışmağa başlamışdı. O deyir ki, əvvəllər indi işlətdiyimiz süd maşınları yox idi. Süddən qatıq çalıb tökərdik nehrəyə, çalxayardıq. Xama bir yana ayrılardı, ayran da bir yana. Yayda hava isti olanda, xama ayrılmaq bilməyəndə gedib Dərəboğazından (Kükündə yer adıdır) qar gətirər, bir qoşa ovuc nehrəyə atardıq, bir-iki dəfə çalxayandan sonra xama ayrılardı. Xama eyməyə yığılardı.











Qısa bir haşiyə: "Eymə nədir",- sualıma Anaxanım nənə belə cavab vermişdi: - Eymə keçi dərisindən hazırlanardı. Keçinin dərisi bütöv soyular, təmizlənər, bir neçə saat həmərsin budaqları qaynadılmış suda saxlanardı. Bundan sonra eymə nə xamanın rəngini dəyişərdi, nə də ondan qoxu gələrdi. Eymədə xama tam suyunu süzərdi, təmiz yağ qalardı. Həmin yağı əridib, küplərə yığıb, ağzını bağlayıb qışın ayazlı-soyuqlu günlərinə saxlayardıq. Ayran isə qatıqla qarışdırılar, ocağa qoyular, azca çürüdülər, ondan qurud hazırlanardı.

Asya xanım isə deyir ki, mənim nənəm südü bişirib tökürdü iri teştlərə, üzü qalın qaymaq bağlayırdı. Həmin qaymağı yığıb əldə azca cəhləməklə (yəni dayanmadan yoğurmaq) yağ düzəldirdi. Bunun ayranı isə yağı tam yığıldığı üçün istifadəsiz olurdu.

Anaxanım nənə: - O vaxtlar bu işləri görmək çox çətin idi, amma indi süd maşınları var, - deyir. Maşın süddən xamanı bir yana ayırır, yağsız südü bir yana. Bu yağsız süd bişirilir, ondan qatıq çalınır. Xamanı da ki əlində azca cəhləməklə yağı, ayranı ayrılır. Qurud hazırlamaq üçün ayranla həmin yağsız südlə çaldığımız qatıq qarışdırılıb ocağa qoyulur, elə ki istinin təsirindən bu qarışıq bir azca yuxarı qalxdı, götürməlisən, qaynatmaq olmaz, keyfiyyəti itər. Bu qarışığı tökürsən torbaya, ta tərpətmirsən, gözləyirsən suyunu tamam süzür. Sonra onu yumurtadan bir qədər böyük ölçüdə yumrulayıb təmiz bir yerdə, günün qabağına düzür, üzünə də tənzif çəkirsən ki, üstünə heç nə düşməsin. Bir gün burada qalandan sonra götürüb kölgəyə qoyursan, tam quruyur. Qurumuş qurudları parçadan tikilmiş torbaya yığıb, ağzını bağlayırsan. Bununla da qışa ən gözəl bir ruzi hazırlamış olursan. Axı qışda malheyvan sağılmır. Süd-qatıq çox az olur. Necə ki əti qovurub qovurma hazırlayırıq, buğdadan yarma çəkirik, xəmir yoğurub əriştə kəsirik, dadlı-tamlı nemətlərimizdən qış üçün qurudub saxlayırıq, bax qurud da bu lazımlı qış azuqələrindən biridir. Çünki onun tərkibində vitaminlər olduqca çoxdur. O vaxtlar kəndimizdə bir həkim vardı, cavan oğlandı. Deyərdi ki, qışda günəş az olur. Gərək elə qidalanasan ki, bədənində vitaminlər azalmasın. Anaxanım nənə gəlininə tərəf çevrilib, ay gəlin, o həkim deyirdi günəşdən nə alırıq? D vitamini, ay ana, - deyə gəlin cavab verir. Hə, qızım, bax o həkimin dediyi quruddan hazırlanan yeməklərin tərkibində çoxdur.

Söhbətin bu yerində nənə gəlininə dedi ki, dur bir qurud kələcəsi bişir, qonağımız da görsün, dadına baxsın. Asya xanımla mətbəxə keçdik. Qayınanasının sözləri qulağında sırğa olan Asya xanım əvvəlcə əllərini tər-təmiz yudu. Sonra bir kiloqramadək qurud gətirib çox da böyük olmayan ləyənə yığdı. Dedi ki, əvvəllər qayınanamın saxsı qabı vardı, qurudu onda açardıq. O qab qırılandan bu ləyəndə açırıq. Ləyənə bir az ılıq su əlavə etdi, başladı qurudları suda açmağa. İslanmış qurud suda açıldıqca Asya xanım yenidən su əlavə edirdi. Beləliklə, 2-2,5 litr su istifadə olundu. Sonra qovurma ilə soğandağı etdi, qurudlu həlimi onun üzərinə əlavə etdi. Bunu çox qaynatmaq olmaz, tərkibindəki vitaminlər ölər, bir-iki burum bəsdir, - dedi. Sonra tavaya yağ qoydu, dağ olanda üzərinə əvvəlcədən doğranmış bir-iki ovuc cəviz(qoz) əlavə etdi, bir qədər tovladı, götürdü. O, bu işləri görənədək mən boşqablara quru lavaş doğradım. Asya xanım "qurud kələcəsi" adlanan yeməkdən çömçə ilə boşqablara payladı, üzərinə də qızardılmış cəviz səpdi.

Boşqabları süfrəyə düzəndə Anaxanım nənə dedi ki, qızım, bu yemək lavaşla, həm də əllə yeyiləndə daha dadlı olur. Bir də ki, qurudlu yeməkləri turşu ilə yox, ancaq soğanla yeyərlər. Asya xanım isə daha maraqlı bir məsələyə toxunaraq bildirdi ki, baxmayaraq ki, qurud yeməkləri qovurma ilə hazırlanır, qovurma isə çox kalorilidir, qurud aşı da, kələcəsi də qan təzyiqinin dərmanıdır.

Həqiqətən də, yemək çox ləzzətli, həm də fərqli dada malik idi. Elə süfrə arxasında Asya xanımdan qurud aşının hazırlanması barədə də soruşdum. Dedi ki, eynilə kələcə kimi hazırlanır, lakin ona yarma, düyü, bir də ki, ərik qurusu əlavə olunur, cəviz vurulmur. Yeyilməsi də eynidir - quru lavaş doğranmış yemək sulanmış çörəklə yeyilir. Bu, Naxçıvanda uzun illərdir yaşadılan çörəyi çörəklə yemək ənənəsidir.

Asya xanım deyir ki, qışı qurudsuz təsəvvür etmək olmaz. Kənddə əksər evlərdə bu faydalı nemət qışa tədarük edilir. O, ildə 10-15 kiloqram qurud hazırlayır. 5-6 kiloqramını özlərinə saxlayır, qalanını Bakı, Sumqayıt, Naxçıvan şəhərlərindəki qohumlarına pay verir. Daha doğrusu, qohumların xahişi ilə onlara da qurud hazırlayır.

Milli mətbəximizin min adda, min bir dadda nemətlərindən olan qurudla bağlı son qənaətim isə belə oldu. Asya xanım boşqablardakı quru lavaşın üzərinə yeməyin suyunu gəzdirərkən qurud kələcəsi eynilə xəngəl görüntüsü aldı. Bu an marketlərdə satılan və istədiyimiz vaxt alıb bişirə biləcəyimiz xəngəl, düşbərə və əriştəni xatırladım. Onların arasında görəsən qurud nə üçün yoxdur? Axı hamı bilməsə də, illərdir, Bakıda qurudun dadı damağında yaşayanlar var. Lakin marketlərdə satılan bu məhsulların heç biri evdə hazırlananların yerini verə bilmədiyi kimi, qurud əsla verə bilməz...

***Mətanət Məmmədova***

# İnsan hüquqları: bir dəfəlik deyil, birdəfəlik

***Beynəlxalq İnsan Hüquqları Günü hər il dekabrın 10-da qeyd olunur. 1948-ci ilin bu günü Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qəbul edərək bu tarixi bütün dünyada insanların hüquqlarının müdafiəsinə həsr etdi.***








Bəyannamədə təsbit olunmuş prinsiplər 1948-ci ildə olduğu kimi, bu gün də aktualdır. 1948-ci ilin dekabrında UNESCO, Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsini təhsil və media vasitəsilə bütün dünyada təbliğ etmək məqsədi ilə öz fəaliyyətinin mərkəzi elementi kimi daxil edən ilk təşkilat oldu.

Baş Assambleyada Bəyannamə qəbul edildikdən sonra o, bütün xalqların və millətlərin səy göstərməli olduğu məqsəd açıqlandı. Bu məqsədlə hər bir fərd və cəmiyyətin, normaların ümumbəşəri və səmərəli şəkildə tanınması və həyata keçirilməsi üçün səy göstərməli olduğu elan edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi hamımızın malik olduğu geniş əsas hüquq və azadlıqları müəyyən edir. O, dünyanın hər yerində, milliyyət, yaşayış yeri, cins, etnik mənşə, dil, din və ya digər status kimi fərq qoyulmadan hər bir insanın hüquqlarına təminat verir.

Bəyannamə məcburi sənəd olmasa da, insan hüquqları sahəsində vahid beynəlxalq standartı formalaşdıran 60-dan çox insan hüquqları sənədinin tətbiqinə öz töhfəsini verib. Bu gün Bəyannamədə təsbit olunmuş əsas insan hüquqlarının BMT-yə üzv olan bütün dövlətlər tərəfindən hamılıqla tanınması, onun təsirinin artmasına kömək edir və insan hüquqlarının həyatımızda əhəmiyyətini vurğulayır.

### 2023: Hamı üçün azadlıq, bərabərlik və ədalət

1948-ci ildə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulundan keçən onilliklər ərzində insan hüquqları bütün dünyada daha çox tanınıb və daha yaxşı təmin olunub. O vaxtdan bəri, Bəyannamə əlillər, yerli xalqlar və miqrantlar kimi həssas qrupları da hədəf alan insan hüquqlarının müdafiəsi sisteminin genişlənməsi üçün əsas rol oynayır.

Eyni zamanda, Bəyannamənin ləyaqət və hüquq bərabərliyi vədi son dövrlərdə ciddi şəkildə araşdırılır. Dünya davamlı olaraq yeni çağırışlarla - pandemiyalar, münaqişələr, artan bərabərsizlik, mənəvi cəhətdən iflasa uğramış qlobal maliyyə sistemi, irqçilik, iqlim dəyişikliyi ilə üzləşdiyi bir vaxtda UDHR-də təsbit olunmuş dəyərlər və hüquqlar bizim kollektiv fəaliyyətimiz üçün təlimat verir. Bu ilki İnsan Hüquqları 75 təşəbbüsü diqqəti İHHB və əlaqədar fəaliyyətlərin universallığının daha dərindən dərk edilməsinə yönəltmək məqsədi daşıyır.

### Maddə 1: "Bərabərlik"

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsində deyilir: "Bütün insanlar azad, ləyaqət və hüquqlar baxımından bərabər doğulurlar. Onların ağıl və vicdanları var və bir-birlərinə qarşı qardaşlıq zehniyyəti ilə hərəkət etməlidirlər".

İnsan haqları heç bir ayrı-seçkiliyə yol verilmədən bütün insanlara insan ləyaqəti ilə yanaşılması fikrini ifadə edir. Yaşamaq hüququndan din və əqidə azadlığına, ləyaqətlə işləmək hüququndan sağlam ətraf mühitdə yaşamaq hüququna qədər geniş hüquq kateqoriyalarını əhatə edən insan hüquqları, bölünməz, bir-birindən asılı və bir-biri ilə əlaqəli olan universal hüquqlar məcmusudur.

Xüsusilə İkinci Dünya Müharibəsindən sonra həm beynəlxalq hüquq, həm də dövlətlərin daxili nizam-intizamı ilə, insan hüquqlarının qorunması və azadlıqların genişləndirilməsi əsas məqsədə çevrildi. Bu məqsədlə dünyanın bütün regionlarından müxtəlif mədəniyyət və cəmiyyətlərin nümayəndələri tərəfindən hazırlanan Bəyannamə ilk dəfə olaraq insan hüquqlarının universal müdafiəsini gündəmə gətirib. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi insanların ləyaqət və hüquq baxımından bərabər olduğunu bəyan etməklə yanaşı, insanları bir-birinə qardaşcasına rəftar etməyə çağırırdı.

Bəyannamənin bəyan edilməsindən sonra həm institutlaşma, həm də insan hüquqları baxımından normalaşdırma baxımından mühüm addımlar atılıb. Ümumbəşəri, regional və milli səviyyədə yaradılmış institutlar və normalar vasitəsilə Bəyannamədə nəzərdə tutulan ideal insan hüquqları nizamının qurulması üçün səylər göstərilir.

### İnsan hüquqları fonundakı Azərbaycan

Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada vətəndaşların hüquqlarından, qanunun aliliyindən asılıdır. Demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizmlə bərabər, insan azadlığı şəraitində hər bir vətəndaşın söz, vicdan, din, sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək kimi hüququnu təminetmə fonunda baş verir. İnsan hüquqları bir dövlətin əsasını təşkil edən, o dövləti daim güclü edən demokratik proseslərin təməl daşıdır. Çünki vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik-hüquqi dövlət quruculuğu, bilavasitə insan hüquq və azadlıqlarının möhkəm təminatının bünövrəsi üstündə mümkündür. Bir ölkədə vətəndaşın hüquqi azadlığı yoxdursa, o ölkənin idarəetməsində, siyasətində çatlar yaranacağı mütləqdir.

Azərbaycanda insan hüquq və azadlıqları, humanizm, ədalət prinsipləri həmişə üstün səviyyədə qorunub. İstənilən sahədə insanların hüquqlarının qorunması, azadlıqlarının məhdudlaşdırılmaması, hüquq islahatları, məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı fərman və sərəncamların imzalanması da məhz bu prinsiplərə xidmət edir.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Köhnə avtobus və məsuliyyətsiz sürücülər

## *İnsan ölümünə səbəb kimdir?*

Bu ilin 9 ayı ərzində respublika ərazisində avtobus və mikroavtobusların iştirakı ilə 1806 yol nəqliyyat hadisəsi qeydə alınıb. Bu barədə Baş Dövlət Yol Polisi məlumat yayıb. Təəssüflə qeyd edək ki, qəzalar nəticəsində avtobus sürücülərinin təqsiri ucbatından 17 nəfər ölüb, 25 nəfər isə xəsarət alıb. Bu qəzaların artmasının başlıca səbəblərindən biri kimi avtobusların köhnəlmiş və yararsız olması göstərilir. Yol nəqliyyat hadisələrinin artmasının digər səbəbi isə sürücülərin məsuliyyətsizliyi, qeyri-peşəkar davranışı, qayda pozmağa meyilli olmalarıdır. SİA ekspertlərin fikirlərini öyrənib.




Nəqliyyat məsələləri üzrə ekspert, hüquqşünas Ərşad Hüseynov bildirir ki, sürücülərin peşəkarlığının artırılması olduqca vacib məsələdir. Sürücülər öz məsuliyyətini dərk edərsə, yəqin ki, yol qəzalarının həm sayı azalar, həm də faciəvi nəticələr bu qədər olmaz. Avtobus sürücülərinin peşə hazırlığında fərqli yanaşmalar var. Həmin yanaşmalar tətbiq olunmalıdır. Sürücülərin iş və istirahət rejiminə nəzarət olunmalıdır. Nəzarət güclü olmalıdır ki, vaxtında istirahət etsinlər. Yorğun vəziyyətdə, əsas da, gecə növbəsində xəstə vəziyyətdə çıxmasınlar. Belə hallar da ciddi qəza riskləri yaradır. Təhlükəsizliklə bağlı sürücülərin davranışı ən yüksək səviyyədə qaldırılmalıdır. Onlar digər sürücülərdən daha etibarlı və peşəkar olmalıdırlar. Texnikanın köhnə olması ilə bağlı problem iqtisadi problemdir. Həmin köhnə texnikanı aradan qaldırmaq üçün ümumiyyətlə ictimai nəqliyyata sərmayə qoyulmalıdır, avtobus parkı yenilənməlidir. Bakı ətrafı kənd və qəsəbələrə işləyən avtobusların yararsız olması ilə bağlı məsələ tez-tez gündəmə gəlir.



Bəs niyə hələ də paytaxt Bakının köhnə avtobus problemi öz həllini tapa bilmir?

AYNA-nın mətbuat katibi Tural Orucov: "Müntəzəm sərnişin daşımanı həyata keçirən avtobuslar gündəlik rels qabağı texniki baxışdan keçirilir. Sürücülər isə tibbi müayinəyə cəlb olunurlar. İctimai nəqliyyatda sərnişinlərə göstərilən xidmətlərin təhlükəsizlik və keyfiyyət baxımından yüksək standartlara çatdırılması məqsədi ilə avtobus parkının yenilənməsi diqqət mərkəzindədir. Sərnişindaşıma sahəsində göstərilən xidmətin keyfiyyəti, təhlükəsizliyi və rahatlığının artırılması, həmçinin marşrutların təhkim edilməsinə şəffaflığın təmin edilməsi məqsədi ilə şəhərlərarası və şəhərdaxili marşrut xətləri müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq mərhələli qaydada müsabiqəyə təqdim edilir. Müsabiqənin şərtlərindən biri də avtobusların daha yeni olmasıdır. Müsabiqələrdə balanslarında müasir və saz vəziyyətdə avtobusları olan daşıyıcılar iştirak edir və qalib gələrək xətlərin istismarını həyata keçirirlər". Hər dəfə xəttə yeni avtobusların gətiriləcəyi bildirilsə də, görünən budur ki, problemin həlli hələ də yubanmaqdadır. Belə davam edərsə, yararsız avtobuslar xəttə olduğu, səhlənkar sürücülər sükan arxasında olduğu təqdirdə faciəvi nəticələr bir o qədər də yüksək olacaq".

***Söylü Ağazadə***

SƏS

9 dekabr
2023-cü il

# Binalarda reklam qadağası müsbət, yoxsa mənfi haldır?

*QURUM RƏSMİSİ AÇIQLADI*




"Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2016-cı il 12 dekabr tarixli 499 nömrəli Qərarı ilə təsdiq edilmiş "Reklam qurğularına Texniki Tələblər"də dəyişiklik edilməsi haqqında qərar qüvvəyə minib.

Bakı şəhəri ərazisində tarixi, mədəni, memari dəyərə malik binaların çoxluğu, müasir estetik görüntü və təhlükəsizlik üzrə kompleks tələblərin həyata keçirilməsinin vacibliyi nəzərə alınaraq, layihənin ilkin olaraq paytaxtda tətbiqi qərara alınıb". Bu sözləri SİA-nın sorğusuna cavab olaraq ADRA-nın mətbuat katibi Hüseyn Azəri deyib.

Onun sözlərinə görə, sahibkarların fəaliyyətində çətinliklər yaranmasın deyə qərarın icrasına yaxın günlərdə mərhələli şəkildə başlanılacaq: "Qərara əsasən, reklam qurğularının binanın fasadının tinlərində, memarlıq detallarında, memorial lövhələrə, həmçinin memarlıq abidələrinin məlumat lövhələrinə 1 metrdən yaxın məsafədə yerləşdirilməsinə, reklamın binanın fasadında dekorativ-bədii və mətn təsvirinin bilavasitə çəkilməsi yolu ilə (boyama, yapışdırma və digər metodlarla) yerləşdirilməsinə, reklam qurğusunun eyvanlarda, məhəccərlər və hasarlar istisna olmaqla, digər çəpərləyici qurğularda yerləşdirilməsinə icazə verilməyəcək. Sahibkarlar nəzərə almalıdırlar ki, memarlıq abidələrində eyni obyektə aid 1-dən çox fasad reklamına, eləcə də abidələrin üzərində kronşteyn panel qurğusunun yerləşdirilməsi də qərarla qadağan edilir. Binanın üzərində eyni zamanda bir neçə fasad reklamı yerləşdirildikdə, qeyd edilən reklam qurğuları vahid üfüqi xətt boyunca bir hündürlük səviyyəsində olmalıdır.

Yuxarıda qeyd edilən və tam mətni Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 499 nömrəli qərarında qeyd olunan bu layihəni Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi (ADRA) fasad reklam qurğularının müasir tələblərə cavab verən estetik görünüşü və təhlükəsiz istismarına nəzarəti təkmilləşdirmək, onların yenilənən şəhər infrastrukturu ilə ahəngini təmin etmək üçün beynəlxalq təcrübədən yararlanaraq hazırlayıb aidiyyatı üzrə təqdim etmişdi. Fasad reklamlarının standartlarını müəyyənləşdirən layihəyə Bakı şəhər İcra Hakimiyyəti, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin əməkdaşları, memar və dizaynerlər, ö cümlədən reklamçılar cəlb edilmişdi".

***Ayşən Vəli***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# AzerTelecom şirkətinin rəhbərliyində yeni təyinat olub

**Emil Məsimov AzerTelecom şirkətinin Direktorlar şurasının sədri vəzifəsinə təyin edilib. Direktorlar şurasının sabiq sədri Fuad Allahverdiyev AzerTelecom şirkətindən, eləcə də NEQSOL Holding-dən noyabr ayında ayrılıb.**



Cənab Məsimov 18ildən artıqdır ki, telekommunikasiya sektorunda fəaliyyət göstərir. O, hazırda Azerconnect şirkətinin Baş direktoru olmaqla bərabər informasiya və kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən bir neçə böyük şirkətin Müşahidə Şurasında təmsil olunur. Emil Məsimovbiznesin idarə edilməsi üzrə İngiltərənin Mançester Universiteti və Harvard Biznes Məktəbinin məzunudur. AzerTelecom Azərbaycanın aparıcı telekommunikasiya şirkəti olmaqla NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun Telekommunikasiya qrupuna daxildir.

NEQSOL Holding on bir ölkədə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərir və 12.000-dən çox işçi heyətinə malikdir.

## Bakcell dünyanın ən sürətlilərinin sürət tərəfdaşı oldu!




Ölkənin ən sürətlisi Bakcell Bakının ilk dəfə ev sahibliyi etdiyi Beynəlxalq Avtomobil Federasiyası (FIA) Prize-Giving ceremony - Mükafatlandırma mərasiminin sürət tərəfdaşı oldu. FIA Mükafatlandırma mərasimi bir çox sürət yarışlarında qalib olan pilotların, avtomobil idmanı cəmiyyəti və azarkeşlərinin ən çox gözlədiyi tədbirlərdən biridir.

Hər il fərqli ölkələrdə keçirilən tədbir bu il 5-8 dekabr tarixlərində paytaxt Bakıda baş tutur. Ənənəvi mərasimdə FIA çempionları ilə yanaşı, həmçinin karyeralarının başlanğıcında olan bacarıqlı yeni nəsil idmançılar və avtomobil idmanında misilsiz rolları olan şəxslər də yad edilir. Xatırladaq ki, sürət yarışlarına böyük maraq göstərən Bakcell 2019-cu ildən etibarən "Formula 1 Azərbaycan Qran Prisi"nin rəsmi dəstəkçisidir. Ölkənin dörd bir yanında "Ölkənin ən sürətlisi" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.

## Neymardan doğma klubuna dəstək



Səudiyyə Ərəbistanının "Əl-Hilal" klubunun hücumçusu Neymar Braziliya çempionatının yüksək liqasını tərk edən "Santos"a dəstək olub. SİA xəbər verir ki, 31 yaşlı futbolçu bununla bağlı özünün sosial şəbəkə hesabında paylaşım edib.

"Müqəddəslər" həmişə müqəddəs olacaqlar. Bayram küçəmizə qayıdacaq, yenə gülümsəyəcəyik", - Neymar paylaşımında qeyd edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**